# GÖRKƏMLİ AZƏRBAYCAN PEDAQOQİ

# MİRZƏ CABBAR ƏSGƏRZADƏ BAĞÇABAN

## VƏ ANA DİLİMİZDƏ YARATDIĞI BƏDİİ ƏSƏRLƏRDƏN ÖRNƏKLƏR



(1264 – 1345) – (1885 – 1966)

«Bağçaban» ləqəbi ilə tanınmış olan Mirzə Cabbar Əsgərzadə Azərbaycanın, bütün Qafqazın və İranın böyük humanist, adlım pedaqoq və ictima xadimlərindən biri dir. O öz mədəni fəaliyyətini Qafqazda, siyası- satirik dərgilərin müxbiri və yazıçısı kimi başlayıbdır. Ömrü boyu uşaqların haqları üçün, xüsusilə «dilsizlər və sağırların» (lallar və karlar) təlim- tərbiyəsi uğrunda çalışb və mübarizə edibdir. Cabbar Bağçaban, Təbriz şəhərində, İranın birinci «dilsizlər və sağırlar» məktəbini qurub və ilk uşaq bağçasını açıbdır. O, İranda uşaq tamaşaları və kitablarının ilkin müəllifi, naşir və rəssamlarındandır. Onun ibda etdiyi yeni təlim üsulu tərkib metodi adlanıbdır. Əsərlərini türkcə və farsca yazıbdır. Cabbar Bağçaban qadınların azadlıq hərəkatının gəlişəməsi yolunda böyük addımlar atıbdır. Təbrizdə, müəllimləri himayə etmə cəmiyyəti və teatr cəmiyyətini qurmaqla, müəllimlərin və ümümiyyətlə kütələnin haqqlrı uğrunda köklü mübarizə aparıb və olduqca əmək qoyubdur. “Azadlıq cəbəhəsi”nin əzasından olan «Zəban» (dil) adlı qabaqcıl, siyasi-pedaqojik və tənqidi dərgini Tehranda nəşr edibdir və müəllimlərin əlbirliyi yolunda çalışıbdır. Dərgidə günün ictimai-siyasi çətinliklərini açıb-araya qoyub, diktatorluq və müstəmləkəçilik əleyəhinə kəsgin çıxış edibdir.


1- Qafqaz: gənclik dönəmi / jurnalistik çalışmalarının başlanması
2- İctimai- mədəni mübarizə / Dustaq
3- İran- Cənubi Azərbaycan / Mərənddə müəllimlik / tərkibi təlim metodu / İranda ilk uşaq tamaşaları
4- Təbriz: İranda ilk qarışıq məktəb və uşaq bağçası / teatr və tamaşalar/ qadınların təlimi uğrunda
5- İctimai- mədəni dərnəklərin qurması
6- Hakimiyyətin əritmə siyasəti / qarşıdurmalar / İranın birinci «Dilsizlər və Sağırlar» məktəbi
7- Şiyraz: uşaq bağçası və tamaşalar
8- Tehran: «dilsizlər və sağırlar» məktəbi / yardımçı cihazların ixtira etməsi
9- «Zəban» (dil) və «Bəhare kudəkan» (uşaqların yazı) dərgiləri
10- «Dilsizlər və Sağırlar»ın təhsil proqramı və ocağı, müəllim becərmə kılasları / kudeta / dustaq / Türkiyə səfəri
11- Son dönəmlər
12- Cabbar Əsgərzadə Bağçabanın bədii yaradıcılığı
13- Son anlarında
14- Qeydlər
15- Mirzə Cabbar (Əsgərzadə) Bağçaban həqqində dəyərli qaynaqlar, faydalı bağlantılar
16- Azərbaycan Türkcəsində yazdığı əsərlərindən örnəklər


**Qafqaz: gənclik dönəmi / jurnalistik çalışmalarının başlanması**

Cabbar Bağçaban öz həyatından belə yazıbdır: « Mən 1885 (1264)- ci ildə İrəvanda anadan olmuşam. Babam «Riza», Təbrizli idi və atam «Əsgər» İrəvanda qənnadlıq və memarlıq ilə yaşayardı.» «Anamın adı Bənövşə idi. Atam da hamı kimi onu sayqı üzündən Kəlbə Bənövşə xanım səslərdi. Yazıb oxumaq bilmədiyinə baxmayaraq aydın və gözü açıq bir qadın idi... » «Təhsilatımı qədimi üsul üzərə, məçidlərdə (mollaxanalarda) almışam.» « Şeyx Əli Əkəbər adlı bir molla, atamı inandırmışdı ki, yeni açılan dövlət məktəbəlrinə gedərsəm dindən dönəcəyəm. Buna görə onun mollaxanasına getməli oldum...» «...15 yaşında ikən yoxsulluq üzündən təhsili buraxmalı olub və atamın peşəsində çalışmaqla geçinmişəm.». (1)

Mollaxanaya gedən zaman «... molla «təlb əlelm fərizətün əla küll müslim və müslimat»ın mənasını deyəndə , qızların məktəbə getməmələrini və anam ilə bacımın dərs oxumadıqlarının səbəbini ondan soruşdum. Ustadın

dediyinə görə « qadınlara aid olan elmdən söz gedəndə, Quran elmi nəzərdə tutulur, özü də Yusif surəsini oxumamaq şərtilə. Çünki qadının ruhu fəsada sarı meyəl edəndir...» onun fikrincə qadına elm öyrənmək gərkəməmişdir, hətta Quranın Yusif surəsinə də baxamamalıdır...» (1)

Uşaqların və qadınların təlim-tərbiyəsinə çox əhəmmiyyət verən Mirzə Cabbar Əsgərzadə , gəncliyindən onlara dərs verməyə başlamışdır. Yaşadığı dövrün ağır məzhəbi şəraitinə və xətərlərinə baxmayaraq gizlicə qızlara evdə dərs verib, bütün ömrü boyuca onların haqqlarını müdafiə etmişdir.

Onun jurnalistik fəaliyyəti, «Qafqaz» qəzetinin müxbirliyi ilə başlanmışdır. «Molla Nəsrəddin» məcmuəsinin əməkdaşı olub, Qafqazda türkcə çap olunan dərgilərin müxbiri və yazıçısı kimi çalışıbdır. (13)

**İctimai- mədəni mübarizə / Dustaq**

Mirzə Cabbar Əsgərzadə (1284) 1905-ci ildə İrəvanda, ictimai mübarizədə iştirak etməsinə görə, Çar rejiminin körüklədiyi dini və etnik çaxnaşmaların (erməni- müsəlman davaları) cərəyanında bir neçə ay dustaq olunubdur. Dustaqda olarkən jelatin çapı vəsaitinin zindana gətirilməsini zəncirdaşının yardımı ilə təşkil edərək, gizlicə «Molla nəhib» və «Molllabaşı» həftəlik dərgilərini nəşr edirmiş. Dərgilərin yazılarını özü yazıb rəsmlərini də özü çəkirmiş. Dərgiləri satış üçün dustaqdan dışarıya çıxaran isə onun zəncirdaşı və həbs yoldaşı idi. Siyasi məhbus Vartan ilə apardığı danışıqlar, tartışmalar və dustaqlıq dövrü onun gələcək ictimai həyatında və görüşlərində dərin izlər buraxmışdır. Zindandan qurtulduqdan sonra həyatını insanlığa və barışa həsr edib, bu yolda var gücü ilə mədəni və ictimai fəaliyyətə başlamışdır. (1) Bu dönəmdə Daşnaklarla mübarizə etmək üçün «Müdafei Məzluman» cəmiyyətini qurmuşdur. (6)

Onun uşaqlar üçün yazdığı ilk əsərləri «Qızıllı yapraq» və «Bayramçılıq» adlı mənzüm həkayələr idi. Bu iki əsər (1292 )-1913-cü ildə «Aciz» təxəllüsü ilə İrəvan şəhərində (2) Kultura mətbəəsində çap olunubdur.( 11) (bax: örnəklər)



**İrəvan 1914 (1293**

Mirzə Cabbar, (1293) 1914-cü ildə İrəvan şəhərində birinci dəfə olaraq, ilk Türk dilli mətbuat orqanı,«Lək lək» (12-11 -2) adlı dərgini nəşr edibdir. «Lək lək» həfətliyinin dili, üslubu, ifadə tərzi, onda verilən bədii yazılar, şeir və filyetonların həyat həqiqətlərinə əsaslanması, onun oxucularının maraq dairəsinin genişlənməsində önəmli rol oynamışdır. «Molla Nəsrəddin» yolu ilə gedən «Lək lək»in xalq qarşısındakı xidmətlərinin tarixi əhəmiyyətindən, ictimai-siyasi mahiyyətindən söhbət açan Zahid Əkbərofun fikrincə «Lək lək» nəşr olunduğu müddətdə Azərbaycan ictimai-siyasi və ədəbi düşüncəsinin inkişafına müəyyən kömək göstərmiş, azadlıq, tərəqqi və demokratiya ideyalarına xidmət etmişdir. (10)

«Bu məcmuədə ictimai bərabərsizliklərin mövcud vəziyyəti, tənqid olunanın kimliyindən, nəçiliyindən asılı olmayaraq tənqid hədəfində olmuşdur. Yeni tipli maarif və mədəniyyət uğrunda mübarizə jurnalın əsas ğayələrindən biri olmuşdur. Burada özəlliklə maarif məsələləri: yeni üsullu məktəblərdə təlim və tərbiyə metodlarının tətbiqi, tələbələrin yaxşı oxuması, soydaşlarının maariflənməsi yolunda əlindən gəlni əsirgəməməyə sövq etmək kimi məsələlər öz əksini tapmışdır.» (11)

Birinci dünya savaşı dönəmində, Daşnakların törətdiyi dəhşətli hadisələr zamanı minlərlə soydaşı kimi Cabbar Əsgərzadə İrəvanı tərk etməli olub, Türkiyəyə köçmüşdür. Türkiyənin İğdır şəhərində öncə təhvildar və sonra oranın valisi (fərmandar) kimi işləmişdir. Savaşın sonlarında İrəvana qayıtmalı olub, həyat yoldaşı Səfiyə xanım Mirbabyı ilə birlikdə «Noraşen» kəndində uşaqlar üçün bir qarışıq məktəb qurmuşdur. Amma gərginliklər üzündən bu işi davam etdirə bilməmişlər. Uzun sürən ağır xəstəlik (Həsbə) və yoxsulluq ailəliklə onları ayaqdan salmışdır. Dözülməz qızdırma içində baş götürüb çöllərə üz qoymuş Cabbarın ayaqlarını soyuq aparıb qaraltmışdır. Qəti ölümdən qurtarmaqdan ötrü, ayaq barmaqlarını kəsməli olmuşlar.



Təbriz 1925 (1304)



Aciz Əsgərzadə təxəllüsü1925 (1304)



Təbriz 1925 (1304)



Təbriz 1924 (1303)

**İran- Cənubi Azərbaycan / Mərənddə müəllimlik / tərkibi təlim metodu / İranda ilk uşaq tamaşaları**

Valideynlərini itirməsi, qıtlıq, yoluxucu xəstəliklər, gərginlik və çatışmaların şiddətlənməsi ilə, 1919- cu (1298) ildə otuz dörd yaşında ikən aylısi ilə birlikdə çoxlu təhlükələr başdan sovaraq, xəstə ikən İrana- Cənubi Azərbaycana, köçmüşlər. İş dalıca çox gəzdikdən sonra, nəhayətdə Mərəndin «Təcəddüd» firqəsinin başçısı Mirzə Qafarxan Mükafatın yardımı ilə «Əhmədiyyə» məktəbində birinci sinif (kilas) müəllimi olaraq işə başlamışdır. Mükafatın təşviqi ilə İranda yazdığı ilk əsəri, «Xor xor» adlı uşaq tamaşasını türkcə yazıb «Əhmədiyyə»nin şagirdləri üçün məktəbin həyətində icra etmişdir. (2)

Bağçabanın təlim tərbiyə sahəsində özünə məxsus metodu var idi, (tərkib metodi adilə tanınmaqdadır), şagirdlərin sağlamlığı yolunda ürəkdən və təmənnasız əmək qoyurdu. Bu zaman İranda, yoluxucu baş və göz xəstəlikləri uşaqlar arasında çox yayqın idi. O mali yardım yığmaqla dərman alıb və öz əli ilə onların başını yuyub və dərman yaxırdı. Sonralar Təbrizdə, Şiyrazda və Tehranda da belə edirmiş. O dönəmdə, şiddət işlətmək təlim- tərbiyə sahəsinin qaçınılmaz metodlarından sayılırdı. Bağçaban «əti sizin, sumuyu bizim» kimi ifadələrə uymağı cinayət sanırdı və onun tərsinə olaraq yeni metodlar işlədirdi. Ürək yandırmaq və məhəbət ilə başa salmağı düzgün yol bilirdi. Uşaqlar üçün öz cibindən qələm- kağız alıb və onlara rəssamlıq öyrədirdi. O, ilk dəfə olaraq uşaqların təlimində tamaşadan istifadə edib, məktəbdə idman üçün vaxt ayırmışdı. O, şagirdlərdə öyrənməyə sevgi oyatmışdı. Bu yolda olmazın çətinliklərə və maneələrə sinə gərməli, qarayaxmalara və kiçiltmələrə tab gətirməli idi. Yorulmadan apardığı mübarizə olduqca uğurlu idi. Öncəki illərdə imtahanların ohdəsindən gələ bilməyən uşaqların təhsil işində sürətlə irəli getmələri qabarıqcasına gözə çarpırdı.

Bağçaban, Mərəndin əmək qədri bilən maarifçiləri və əhalisinin dərin hörmətini və alqışını qazanmışdısa da, geriçi qüvvələrin qarşıdurmalarına dözməli olmuşdur. Özü belə yazmışdır: 1920-ci (1299) ildə «qız məktəbi açmaq üçün cavaz almışdım. Məktəbi açanda lapdan şəhərin sözü keçərli, qafası qara bir mollasının qurğusuna aldanmış təəsüblü bazar əhli başıma tökülüb Mərəndin qoçularından göndərməklə canıma qəsd etdilər və məktəbin açılmasının qabağını aldılar... (1)

[1920-1299 kudeta ili] O il, olduqca acı hadisələrin yolunu çəkirdi. O ildə Xiyabanı şəhid oldu, (Tağı) Rəfət özünü öldürdü və azadlıq sevər insanların tıfağı dağılmış oldu...» (1)

**Təbriz: İranda ilk qarışıq məktəb və uşaq bağçası / teatr və tamaşalar/ qadınların təlimi uğrunda**

Təbriz və Şiyrazın maarif idarələrinin rəisləri (Zəka əl Dövlə Diybac, Əbülqasım Fiyuzat*), Bağçabanın başaracığı və ustalığını eşidib, onun yeni təlim metodi (tərkib metodi adlanmış) və icra etdiyi uşaq tamaşaları ilə yaxından tanış olmaqdan ötrü, 1920-ci (1299) ildə Bağçabanı Təbrizə çağırdılar. O, Təbrizə çatanda Azadistan dövlətinin başçısı, Şeyx Məhəmməd Xiyabanı öldürülmüş və hərəkat yatırılmaqda idi. Hərəkata qoşulanlar, o cümlədən onu Təbrizə çağıranlar işdən çıxarılıb və ya xud gizlənmişdilər. Şəhərdə böyük dəyişikliklər aparılırdı, ictimai- siyasi gərginlik hökm sürürdü. Onun da gələcəyi bəlli deyildi. Bir sürə didərginlik və işsizlikdən sonra əski dostu, adlım və yorulmaz mübariz Mirza Qafarxan Siyahpuş* (Zunuzı) onu Azərbaycanın görkəmli azadlıq sevər və demokrat inqılabçısı Mirza Nurulla xan Yekani* ilə görüşdürmüşdür. Yekani maarif idarəsilə yaxından tanış idi və Bağçabanın ora getməsini düzgün bilməyib və onu Yekandakı məktəbə müəllimçiliyə göndərmək istəmişdi. Bağçaban, Qafarxan Siyahpuşun çalışmaları nəticəsində maarif rəisi Məhəmədəli Tərbiyət (tanınmış mədəniyyət xadimi) ilə görüşüb danışandan sonra, Təbrizdə «Daneş» adlı məktəbin birinci sinifində müəllimçilik etməyə başlamışdır. Təbrizin maarif

idarəsi Mirzə Cabbarın tədris üsulunu bəyənib, kiçik uşaqların təlim- tərbiyəsi sahəsində onun təcrübəsindən istifadə edirdi. (1)

1923-cü (1302) ildə Əbulqasım Fiyuzat Azərbaycanın maarif rəisı olandan sonra Bağçabana uşaq bağçası açmasını təklif etmişdir. O günlərdə yalnız dini azınlıqlara aid bir uşaq bağçası var idi. Bağçaban, iranın maarif nazirliyində baş müdir işləyən aşırı fars millətçisi Doktor Möhsüninin və başqa geriçi güclərin daş atmaları və qarşıdurmalarına baxmayaraq, 1924-cü (1303) ildə Təbrizdə Məqsudiyyə məhəlləsinin Əncümən küçəsində, İranın ilk uşaq bağçasını (kudəkestan- «bağçeye ətfal» adilə), birinci qarışıq qız-oğlan (moxtəlet) məktəbi olaraq, qura bilmişdir. O dönəmdə qarışıq məktəb açmaq irəliyə atılmış çox böyük bir addım və beyinə sığmaz bir iş idi, hansı ki, bir çoxları oğlanların da məktəbə getməsinə könül verməyirdilər. Bağçaya gələn uşaqlardan bir neçəsi dilsiz və sağır idilər və ona görə başqa məktəblərin qapısı üzlərinə bağlı idi.

Bağçaban Təbrizdə olan zaman uşaqların tamaşa ədəbiyyatının təməlini qoyubdur. Tamaşalar yazıb səhnəyə çıxartmaq, surud oxumaq, uşaqlara nağıl deмək gəzintiyiə aparmaq və idman üçün vaxt ayırmaq, ilk dəfə onun tərəfindən məktəblərdə icra olunubdur.

Tamaşalarada uşaqlar özləri də qatılıb və aktiv rol oynayırdılar. Səhnəni düzəldib bəzəməkdə və tamaşada işlənən paltarları tikmək və maskaları qayırmaqda, həyat yoldaşı Səfiyə xanım olduqca yardım edirdi. Bağçaban, yazdığı uşaq şeirləri və tamaşalara Səfiyə xanımın yardımı və əməkdaşlığı ilə musiqi bəstələyirdi. Böyük qızı Səminə xanımın söylədiyinə görə anası, uşaqlığında tarçalmaq öyrənərdi və musiqi ilə tanışlığı var idi. (2) Bağçaban onun yardımı və əməkdaşlığı ilə qızlara məxsus siniflərdə dərs verməkdə də böyük uğurlar qazanmışdır. Bu zamanlarda, Təbrizin aydınlarından bir neçə nəfərini əməkdaşlığa çağırıb və qadınların kişilər səviyyəsində təlim tərbiyə ala bilməsi üçün «Məktəbe nesvan» adlı qadınlara məxsus bir məktəb açmağa baş qoşmuşdur. Bu işdən ötrü bir cəmiyyət yaratmağa da çalışmışdır. Amma geriçi qüvvələr və təəsübkarların qarşıdurmaları üzündən bu iş baş tuta bilməmiş idi.



**Təbriz uşaqlarin tamaşası 1926 (1305)**



**Təbriz 1926 (1305) divarda uşaqlarin əl işləri**



**Təbriz, uşaq bağçası 1926 (1305) uşaqlarin əl işləri ilə**

Təbrizdə olan zaman «Fədakar müəllim» və « Erkək xalaqızı» adlı tənqidi tamaşaları türkcə və «Əlfbaye asan» adlı dərsliyi farsca yazıbdır. Bağçabanın oğlu Səmin bəy öz xatirələrində atasının gənclikdən teatr ilə maraqlanmasını onun öz dilindən belə nəql edibdir: « Yeni yetməlik və gənclik dövründə, Qafqazda İrəvan şəhərində yaşadıqda Üzeyir Hacıbəyofun «Məşədi İbad» operetində oynamışdım, və onun yazdığı «Arşın-mal alan» operetini dəfələrlə görmüşdüm ... Təbrizdə olarkən yaşlılar üçün türkcə iki tamaşa əsəri yazmışam...» (3)

**İctimai- mədəni dərnəklərin qurması**

Bağçaban (1925) 1304-cu ildə Təbrizdə «Müəllimlər Birliyi» və «Teatr» cəmiyyətlərini (Cəmiyyəte Ettefaqe Moəllemin- Cəmiyyət Teatr) qurubdur. Xalq tərbiyəsi üçün ən önəmli ocaqlardan biri olan teatr sahəsində yorulmadan işləyib müntəzəm surətdə tamaşalar verməklə, ictimai çətinlikləri işıqlandırmağa çalışıbdır. O, «İbrət Güzgüsü» (Aiyneye Ebrət) adlı teatr aktiyorlar heyətinin əsli üzvlərindən biri idi.

Bağçaban, uşaqların çeşidli dərsləri rahatcasına başa düşəmələrindən ötrü «səmi və bəsəri» (eşitməyə və görməyə aid) vəsait və cihazlar düzəldirdi, onların səhiyyəsi və sağlamlığı üçün əlindən gələni əsirgəməyirdi. Təbriz əhalısının bütün təbəqələri, aydınlardan tutmuş kütləsinə qədər ona böyük sevəgi bəsləyır, onu alqışlayırdılar. O, kiçik uşaqların

məktəbini uşaq bağçası və onların təlimçilərini bağçaban adlandırmaq istəyirdi, bundan ötrü özünün soy adını «Bağçaban» seçmişdir.

Özünün yazdığına görə, heç zaman siyası və hizbi fəaliyyətlərə baş qoşmamışdısa da, ictimai və mədəni fəaliyyətləri üzündən xalq içərisində sevilirdi, buna görə də polis ona şübhələnirdı. Azərbaycanın mədəniyyət xadimləri və maarif sevərləri onun sədaqətlə və təmənnasız qulluq etməsini görür əməyinin qədrini bilirdilər. Buna görə Bağçabanı İran Şura Məcəlisi nümayəndəliyinə kandid etmək istəmişdilər. Lakın o mədəniyyət sahəsində fəaliyyət etməyi üstünraq sayıb kandid olmağa boyun qoymamışdır. (1)

**Hakimiyyətin əritmə siyasəti / qarşıdurmalar / İranın birinci «Dilsizlər və Sağırlar» məktəbi**

1926-cı (1305) ildə doktor Möhsüni adlı qatı irtıcaçı və tanınmış şovinist Azərbaycanın maarif rəisliyinə göndərilmişdi. Bağçaban öz bioqrafısında belə yazıbdır: «... onun əkid fərmanı üzərə şagirdlər bir birlərilə, təlimatçılar onlarla və maarif idarəsinin əməkçiləri (işləyənləri) məktəbə rücu edənlərilə hamılıqca farsca danışmalı idilər, yoxsa işdən çıxarılacaq idilər. Bunun çətinliyi və əməldə mümkün olmadığı bir yana qalsın, o, bu söz ilə böyük bir qövmun həqqini və tarixi əlaiqini danırdı və Azərbaycanlıların yurdsevərlik hislərini kiçiltməklə onları yaralayırdı. Doktor Möhsüninin Azərbaycanlılarla ilgili yaramaz davranışını, tamamilə Hitlerin yəhüdilərə qarşı yürütdüyü davranışa bənzətsəm, bəlkə də yanlış olmasın... Bu geniş ölkənin hankı yanına baxsaq, orada yaşayan xalqın min illər uzununda anadan gəlmə (qərizi) və təbii olaraq öz dilinə, dəbinə və rüsumatına alışdığını anlamaq olar. Güc və quldurluq ilə, adətlərini və dillərini onlara unutdurmaq olası bir iş deyildir... »(1)

[Doktor Əhməd Mohseni. Emadoldovlə- maarif naziri olubdur. 1876-da Xoradanda anadan olub, Tehran, London və Pariddə təhsil almışdır.]

«... Doktor Möhsüni işi oraya dək gətirib çıxarmışdı ki, onun yaramaz davranışlarından bezib, canları boğazlarına yığışmış əhalıdan bir iddəsi onun evini dövrələyib daşa basmaqla canına qəsd etmişdilər. Təbrizin valısı onun canını qorumaqdan ötrü bir dəstə soldat göndərməli olmuşdur.» (1)

Günlərin birində Doktor Möhsüni, Bağçabanı çağırıb və onun uşaqlar üçün türkcə qoşduğu şeirlərinə irad tutmuşdu. Şeirlərin siyasi məzmun daşıdığını vurğulamışdı. Onu sorğu- suala çəkərək «Gümüş qəfəsli bülbül» şeirini qoşmaqdan nə məqsəd güddüyünü, bülbülün kim olduğunu, gümüş qəfəs ilə nəyi anlatmağını və gülüstanın şənlənməsindən nə andırmağını soruşmuşdu. (Şeirdə deyilirmiş: bülbülün ötməsini sevdim, onu gülüstandan ayırdım, tutub gümüş bir qəfsə saldım. Çox keçmədən bülbül nəfəsdən düşdü, mən də həvəsimi itirdim. Onda bildim qəfəs gümüşdən olsa belə, bülbül qəfəsi sevməz. Qəfəs dustağında saxlanmasına qıymadım, qapısını açdım, bülbülüm qəfəsdən qurtardı, sevincək cəh-cəh vurub ötərək gülüstanı şənləndirdi.) Bağçaban, heyvanlara nisbət uşaqlarda məhəbbət hissini oyatmaq qəsdilə qoşduğu başqa şeirlərini Möhsüniyə xatırlatmışdır. (1) Ancaq onu inandıra bilmədikdə, Möhsüninin gəzək dalıca gəzməsini başa düşmüş idi.

Doktor Möhsüni qabacasına davranmaqdan çəkinmirdi. Bağçaban neçə vaxtdan sonra, dilsiz və sağırlara (karlar və lallara) məxsus məktəb qurmaq fikrini Doktor Möhsüniyə danışdıqda, o çox başı soyuqluqla demişdi: «bizə, dilsizlər və sağırlar məktəbi lazım deyildir. Dilsizlərin dillərini aça bilmək bacarığı vardındırsa, gücünü, uşaq bağçasında fars dilninin yayılması uzərinə qoy! Bu, ondan yeyraqdır. Türk camatının fars dilini öyrənməsi bizim üçün lalların dillənməsindən vacibraqdır.» Bağçaban onun cavabında demişdir:«Mən qumarbazxana açmaq istəmirəm ta sizdən icazə almalı olam. Mən, yarın məktəbin kətəbəsini yuxarı qaldıracağam, siz də dəstur verərsiz aşağı endirərlər.» (1) və qapını çırparaq otaqdan dışarıya çıxmışdır. Nəhayət, 1926-cı (1305) ildə çeşidli müxaliftlərə sinə gərərək Təbrizin Əncümən küçəsində, uşaqlar bağçasının yanında yerləşən məruf Əncümən İmarətində İranın birinci «Dilsizlər və Sağırlar» məktəbini qura bilmişdir. Altı ay sonra, Əncümən həytini döşəyib Təbrizin maarif sevərləri, rəsmi məqamları və xarici konsulxanaların təmsilçiləri qarşısında, Bağçabanın təlim verdiyi üç uşaq səhnəyə çıxmışdılar. O gün dam- divar üstündə və qonşuluqdakı ağacların başında belə adam qımıldayırdı. İgnə salmağa yer yox idi. Xiyabanının nitq etdiyi həyətdə, hamınının heyrətdən bərəlmiş gözləri önündə üç uşaq yazı oxuyur, onlara (barmaq ilə göstərməklə) diktə olunanları tabloda yazırdılar. Beləliklə Cabbar Bağçaban ilk dəfə olaraq İranda dilsizlər və sağırlar məktəbinin təməlini qoymüş idi...

Doktor Möhsüni, gizlətmədən açıqcasına əritmə (asımılasya) və öncədən işlənilmiş farslaşdırma «siyasətini» yürüdürdü. Demokrat və azadixah şəxsiyyətləri maarif sahəsindən uzaqlaşdırmaq üçün var gücünü vurub, əlindən gələni əsirgəməyirdi. Bağçaban da, aşırı pan-iranistin sonsuz kiynəsinə tuş gələn müəllimlərin içərisində idi. 1927-ci (1306) ildə Doktor Möhsüni, siyasi səbəblər üzündən (4), Bağçabanın açdığı «Uşaq Bağçası»nın , pulunu kəsib və basqı altında oranı bağlatdırmışdır və üzə çıxartmadan, onun Tehrana göndərilməsini düzəltmiş idi. Bağçaban parlaq xidmətlərinə rəğmən və könlü istəməyərək Təbrizi tərk etməyə məcbur olmuşdur. (6-2)

**Şiyraz: uşaq bağçası və tamaşalar**

Fars vilayətinin maarif rəyisi, köhnə dostu Əbülqasım Fiyuzat macəranı eşitcək, onu Şiyrazda uşaq bağçası qurmağa çağırmışdır. Tehranda nəzmiyyə idarəsi yubanmasını gəzək tutub, onun yola çixma (müsafirət) cavazına qol çəkməyirdi. Onu başda dolandırırdı. Bağçaban etiraz etdikdə döyülüb söyülmüş və sərtib Dərgahının dəsturu ilə neçə gün həbs edilmişdi. (6-1) Dustaqdan qurtardıqda çox çətinliklər çəkəndən sonra özünü Şiyraza yetirmişdi. İşı yubatmadan haman ildə [1927 (1306)] Şiyrazın uşaqlar bağçasını qurmuşdur. Uşaqlar orada, oynamaq, idman etmək, şeir və sürud oxumaq və rəssamlıq ilə birlikdə, tikiş tikmək, paltar yumaq, toxuculuq, bənnalıq və ... kimi əl işlərini də öyrənirdilər. O Şiyrazda da pedaqoji, ədəbiyyat və teatr sahəsində fəaliyyətlərini davam etdirirdi. Uşaqlara yazdığı tamaşa əsərləri «Qurd ilə Çoban», «Xəzuk xanım» və s. (Gorg və Çupan, Xanom Xəzuk...) dönə- dönə Şiyrazın uşaq bağçasında icra edilmişdir.



Şiyraz 1928 (1307)



خزوک خانم



گرگ و چوپان



Şiyraz 1932 (1311)

Bağçaban uşaqların təlim-tərbiyəsi üsulunu, açıqlarkən belə yazıbdır: «...uşaq bağçasının özünə məxsus oyunları, nağıl, tamaşa, mahnı, şeir... və qısaca desək özünə məxsus mədəniyyəti vardır. O zamanlar kimsənin bunlardan xəbəri yox idi, demək olar, bilikli təlim-tərbiyəçilər belə, bunları dəyərsiz, yersiz, pis və man (ayıb) bilirdilər... Uşaq təlim alarkən, uşaq oyunları və tamaşalarının yardımı ilə heyvanların dünyası ilə tanış ola bilir, demək, uşaq, heyvanları yamsılamaq, səslərini və oyunlarını çıxartmaqla, öyrənir. Amma valideiynlər bunları yaramazlıq, ədəbsizlik və əxlaqdan uzaq sanırdılar. Onlar istəmirdilər balaları it- pişik səsi çıxartsınlar, və «zad əlmaad» duası oxumaq yerinə, «Xəzük Xanım »ın bala bulanmış sıçan quyruğu ilə sürmə çəkməsi nağılına qulaq assınlar. » (1)

Şiyrazın maarif sevərləri və mədəniyyət qulluqçuları ona minəttdar olduqlarını bildirməkdən ötrü Şiyrazın uşaq bağçasına «Bağçaban» adı vermişdilər.

**Tehran: «dilsizlər və sağırlar» məktəbi / yardımçı cihazların ixtira etməsi**

Neçə il Şiyrazad işləyəndən sonra, 1932-ci (1311) ildə Bağçabangil Tehrana köçməli olmuşdular. Səminə xanım (Bağçabanın böyük qızı) bu haqdə belə yazıbdır: atam, Tehranda «...əlverişli şəraitin, maddı və məənəvi yardımın olmadığı ucundan istədiyi pedaqojik və psikolojik araşdırmalar qurumunu yaratmaq fikirindən daşınıb yaşayışını təmin etmək üçün siqaret qayırma karxanasında işləməyə başlamışdır.» (2)

Səmin bəy (Bağçabananın oğlu) atasının dilindən belə yazmışdır: « ... Qafqazlı mahacirlərdən olduğuma görə pasportum mahacirlik pasportu idi. Ona görə də məktəb açmağa cavaz ala bilmirdim. Dörd- beş ay didərginlikdən sonra işim bir yerə çatmadı və amaclarımın ardını tutmaq üçün Tehrandan dönüb Qafqaza qayıtmaq qərarına gəldim ...» (3)

Bağçaban, çoxlu çalışmalardan sonra, 1933-cü (1312) ildə, qırx səkkiz yaşında olarkən Tehranın «Dilsizlər və Sağırlar» məktəbini - İran yurtdaşlığını alandan sonra- qura bilmişdir.



**Tehran 1928 (1317)**
**”Sağırlar və Dilsizlər” məktəbi**



**Tehran 1929 (1318) yardımcısı**
**Səminə xanim ilə məktəbdə**



**Tehran 1954 (1333)**

1935-ci (1314) ildə dilsizlər və sağırların eşidə bilməsi üçün dişlərin və baş çanağının vasitəsilə səsləri, fiziki cəhətdən çatışmazlığı olan uşaqlara çatdıran və sezdirən bir cihaz ixtira etmişdir .

Öz dediyinə görə: «on beş yaşında ikən qəza baş verməklə, sol qulağımdan sağır oldum. Valideynim məni doktor yanına aparmaqdansa, dava- dua ilə xəstələrə şəfa vermək iddiasında olan bir seyidin yanına apardılar. Alicənab Seyid ağa bütün on beş günü qulağıma dua püləyirdi və özü dediyinə görə dərman tökürdü. Xatirimə gələn dərmanlardan birisi neft idi! Müalicə zamanı saatı qulağımın dibində tutanda heç nə eşitməyirdim, amma qulağıma yapışdıranda nə isə bir səs gəlməsini duyurdum. Seyid ağa da istədiyinə (nəzir- niyazına) çatmış olurdu! Bir gün solum üstə uzanmışdım, yastıq eşidən qulağımın üstünü tutmuşdu. Saatı tutuq qulağıma yapışdiranda, saatdan gələn səsi hiss etdim. Qıcıqlanıb saatı dişlərimin ilə saxlayıb, yoxladım. Səsini yaxşı eşidirdim. Neçə dönə yoxlayandan sonra doğrucasına eşitməyimə inandım. Qısaca desəm, eşidən qulağımın üstünü qapadıqda, dişlərimin yardımı ilə saatın səsini eşidə bilməyimi başadüşdüm. Bu təcrübənin ardınca Seyid ağadan əl üzüb, onu buraxdıq! Günlərin birində, «dilsizlər və sağırlara» təlim verərkən bu cərəyan yadıma düşdü. Onları, saatı dişləri ilə tutmaqla yoxladım. Saatın səsini duyurdular. Bu verimli sınaq üzündən, onlar üçün «Sümük Qulaqlıq» düzəltmək düşüncəsi beynimə düşdü...» (1)

Bağçaban öz fəaliyyətlərinin davamında, 1943-cü (1322) ildə Tehranda, «Dilsiz və sağır uşaqlardan himayə cəmiyyəti»nin təməlini qoymuşdur.

**«Zəban» (dil) və «Bəhare kudəkan» (uşaqların yazı) dərgiləri**

1943-cü (1320) ildə müttəfiq dövlətlərin qoşunları iranı işğal etdilər. İnsaniyyət və azadlığın qənimi, Riza xan mirpənci, Pəhəlvi ləqəbi ilə Şah edən yadellilər, onu taxtdan yerə salıb üzdən iraq sürgünə göndərdilər. Nisbi azadlıqlara meydan açıldı. Bağçaban yaranan əlverişli fürsəti itirmədən dərgi çıxarmağa əl atdı. 1944-cü (1323) ilin qışında, Tehranda müəllimlərə məxsus «Zəban» («dil» deməkdir və müəllimlərin danışan dili olmasına işarə dir) adlı aylıq bir dərgini yaymağa başlaya bildi. Doktor Həştrudi ilə Əhməd Aram da yazıların yır- yığışında və dərginin yazıçısı kimi ona yardım edirdilər. Dərgi müəllimlərin haqqlarını müdafiə edirdi, Bağçaban deyirdi «müəllimçilik bizim məramımızdır!» (məzhəbimizdir) «Zəban» dərgisi Azadlıq Cəbhəsinin əzasından idi. İctimai mövzülarla maraqlanıb ölkənin daxili və xarici siyasətlərini açıqlamağa çalışırdı. Maarif təşkilatlarının çatışmazlıqlarını açıqcasına və kəsginliklə tənqid edirdi. Müəllimləri arxadaşlığa və əlbirliyə çağırırdı. Onları sinif olaraq birləşdirməyə çalışırdı. Dərgi bütün əyalətlərdə müəllimlərin sevgisini və sayqısını qazanmışdı...

Amerikada dokturasını almış maarif nazırının fikrincə, Bağçaban təhsilatsız (təhsilat mədrəki olmayan), şahlığın ziddi, komunist və Tudəçinin birisi idi və əslində İranlı deyil, Qafqazlı mahacirlərdən idi. Bağçaban onun qarşısında uzun və dışsındırıcı yazı ilə «Zəban» dərgisində çıxış etmişdir:

« ...Ağayi nazir! Mən filankəslər kimi Berlində olmamışam və Parisdən gəlməmişəm, mən Moskvaya gedib və Londondan qayıtmamışam, mən sizin tayınız Amerika yemişi deyiləm.

Siz nazir ikən, mən sizinlə bu mücadiləni sadə bir müəllim olaraq başlamışam. Amma mənim təlimatçılıq məsləkimdə (məzhəbimdə) qorxaqlıq və dizə çökmək dönüklük (kafirlik) deməkdir. Mən qoyun kimi zülmün,

tapdalanmanın və yalanın qarşısında baş əyib, susa bilmərm. Belə etsəm, məndən təlim alanlar da qoyun xuyunu mənimsəyəcəklər. Zülmə qarşı mübarizədə kimsə mənlə yola düşüb ayaqlaşmasa, özüm tək başıma yollanmalıyam. Yalnız qalsam belə, başqalarının qabağa düşməsini gözləyib, sonra onların ardına düşməyi, bacara bilmərəm. Müəllimlər yalan və zülmə qarşı gedən döyüşün ön sıralarında durmalıdırlar. Gərəkməz ayrılarının qabağa düşməsini gözləsinlər, özləri yola düşməlidirlər...» (5- 4)

Bağçaban, «Mirzə Həsən Rüşdiyyə» və Cəlil Məhəmməd Quluzadə kimi, cəmiyyətin islahı və inkişafında maarif və mədəniyyətin böyük və önəmli rol oynamasına inanırdı. Buna görə də müəllimlərin boynuna düşən vəzifəni çox əhəmmiyyətli sayırdı. Zəban dərgisinin ilk sayısının üz qabığını «Vətən dili» dərsliyinin müəllifi, İranda ilk modern məktəbin (mədrəsənin) qurucusu və ilk uşaq şeirinin qoşanı Mirzə Həsən Rüşdiyyənin şəkili bəzəmişdir. Dərgidə Rüşdiyyənin həyat və fəaliyyətlərinə görə yetərli məlumat verilmişdir. Bağçaban, Rüşdiyyəyə böyük sayqı və hörmət bəsləyirdi:« ... Mirzə Həsən Rüşdiyyə mənim başımı ucaldıb ilk dəfə «Dilsizlər və Sağırlar» məktəbinə buyurub gələndə, qoyduğu əməklərə və çəkdiyi ağrılara şahıd olaraq deyə bir məktubu mənə göstərdi. Bu yazı ustadın təlim verdiyi bir nəfər gözü tutuq (görməz- kor) şəxsin yazısı idi... Maarif nazirliyi Rüşdiyyənin 22 illik əməyinin qədrini bilmədi və ona gözü görməzlər (korlar) məktəbini açmağa görə yardım etmədi... » .«... Mərhüm  Rüşdiyyə apardığı mübarizədə bir çox çətinliklər və arakəsmələr ilə üz üzə gəlmişdir, ona yapışmaz töhmətlər də yaxılmışdır.» (5- 4)












1945-ci (1324) ilin yazında Zəban dərgisinin cənbində, «Bəhare Kudəkan» (uşaqların yazı) adlı uşaq dərgisini nəşr etməyə başlamışdır. Dərgidə, şifahı xalq yaradıcılığı (folklor) səpki və dilindən olduqca yararlanaraq tərbiyəvi və tənqidi əsərlər dərc edirdi. Bağçabanın ictimai baxışları «Zəban» dərgisi kimi burada da qabarıqcasına gözə çarpırdı. Örnək oaraq «Dəvə biri bir qıran» (Şotor yeki yek qerane) adlı, folklorik ədəbiyyat sayağı yazdığı rəsmli tənqidi həkayədə belə yazmış idi: «...Bir gün Kərblayı Rüstəm əmiyə, iki oğlunun Riza şahın sarayını tikəməyə biyarlığa aparılmasını bildirdilər. Kərblayı Rüstəm və Xücəstə xanım o gündən sonra bir də balalarının üzünü görə bilmədilər. Dibdə, üç ildən sonra, Kərblayı əmiyə oğlanların vay xəbərini gətirdilər. Şahın nökərləri onları şallaq altında məhv etmişdilər... » (4)

**«Dilsizlər və Sağırlar»ın təhsil proqramı və ocağı, müəllim becərmə kılasları / kudeta / dustaq / Türkiyə səfəri**

1949-cu (1328) ildə Bağçabanın yazıb hazırladığı «Dilsizlərin» beş illik təhsil dövrəsinin nizamnaməsi və proqramı təsdiq (təsvib) edilmişdir. İki il sonra 1951-ci (1330) ildə «Dilsizlər və Sağırlar Ocağı»nı qurub və sağırların təlimi üçün müəllimlər tərbiyə etmək kılasını öz məktəbində dair edə bilmişdir.

Dərbarın xəyanəti və əlbirliyi ilə Amerika və İngilis dövlətlərinin 1953-cü (1332) ildə murdad ayının 28 də yola saldıqları çevrilişdə (kudeta da) altmış səkkiz yaşlı Bağçaban da bütün ailəsi ilə birlikdə tutulub (2) və bir sürə Xürrəmabadın Fələk-ül Əflak qalasında dustaq olunmuşdur. Bağçabanın özünün vurğuladığına görə , o, siyası hizblərdə (partiyalarda) üzv olmamışdır. (1) **Ancaq ictimai məsələlərdə aktiv olmasına görə polisin nəzərincə göz altında saxlanılmalı adamlardan idi.Deyilənlərə görə tutulmasının səbəblərindən biri də Sülh cəmiyyətinə qatılması ola bilərdi. O, zındandan qurtardıqdan sonra yenə də mədəni və ictimai işlərinin ardını tutmuşdur.

Türkiyənin «Dilsizlər və Sağırlar» məktəblərinin təcrübələri ilə tanış olmaq üçün 1958-ci (1337) ildə Türkiyə səfərinə çıxmişdir. Görüşdən sonra, «Dilsizlər və Sağırlar» üçün müəllimlər tərbiyə etmə kurslarının ardını tutmaq zərurətini daha artıqraq hiss edib və işin dalısını yenidən tutmuşdur.

**Son dönəmlər**

Ömrünün son illərində, 1964-cü (1343) ildə müəllimlər üçün «Dilsizlərə və sağırlara təlim vermək metodu» (Rəveşe amuzeşe kər və lalha) və sağırlar üçün «Hesab » kitabını, yazmış, ictima xadimlərinin və yaxşı adamların xidmətlrinə sayqı göstərmək üçün «Səlam cəmiyyəti» (geramiydaşt ya cəmiyyəte səlam) adlı dərnəyi qurmuşdur.

Cabbar Bağçaban sülh sevər, azadixah və humanist bir insan idi. Ömrünün sonunadək uşaqlar, dilsizlər və sağırların təlim- tərbiyəsi və sağlamlığı uğrunda yorulmadan mübarizə etmişdir. O deyirdi: «mənim məktəbimin qapısı heç vaxt yoxsul uşaqların üzünə bağlanmayacaqdır. Uşaqların mali durumları, miliyyət və irqləri, din və məzhəbləri, mənim məktəbimə daxil olub- olmamalarına heç zaman mane törətəməyib- törətəməyəcəkdir. Məktəbimdə təhsil almanın yalnız şərti, uşağın sağırlığı (karlığı) və ondan irəli gələn dilsizliyidir (lallığı)...» (4)






**Cabbar Əsgərzadə Bağçabanın bədii yaradıcılığı**

Bağçaban, ictimai çalışmaları ilə yanaşı, maarif və mədəniyyət (ədəbiyyat, incəsənət və teatr) sahələrində də fəaliyyətlrinə davam etdirmiş, İranda uşaq ədəbiyyatının ilk müəllifi, naşiri və rəssamı olubdur. O, uşaqların psikolojik aləmini dərindən tanıyırdı. Onların gözü ilə dünyanı seyr edib və ağır yüngül etməyi bacarırdı. Uşaqların başa düşəbiləcəyi dildə yazıb yaratmaq onun qabarıq xüsusiyyətlərindən biri idi. Onun çox cəhətli yaradıcılığı- pedaqoji, şeir, incəsənət, musiqi, mədəniyyət və səhiyyə ilə sıx bağlı idi.

Türk, fars və rus dillərini bilirdi və əsərlərini türkcə və farsca yazmışdır. Yazılarını və lirik şeirlərini «C.Əsgərzadə», «Aciz», «Bağçaban» adları ilə, satirik şeirlərini isə «Məhkəmə pişiyi», «Noxtasız», «Leyləyin yuvadibisi», «Molla Haray» «Anaş qurbağa», «Qurbağa», «Hacı leylək», «Müqəllid», «Lək lək» və s. taxma adlar ilə çap etdiribdir. (12-10)

«Onun teatr, şeir və uşaq nağıl və hekayələri mövzülarinda 9 cild farsca əsəri çap olunmuşdur. Pedaqoji, dilsizlər və sağırların yazıb-oxuması və təlim-tərbiyəsinə dair isə 13 əsəri nəşr edilmişdir.» (2) O cümlədəndir: «Adəme əsil», «Əsrare təlim və tərbiyət», «Əlifbaye asan», «Əlifbaye Bağçeban», «Rəveşe amuzeşe kər və lalha», «Zendeqaniye kudəkane», «Mən həm dər dönya arzu darəm», «Zendəginameye Cəbbar Bağçeban» və sairə...

1970-ci (1349) ildə «Dünya uşaq kitabları şorası», Bağçabanın uşaqlara yazdığı «Baba bərfi» adlı kitabını «Uşaq kitablarının ən yaxşısı» kimi seçmişdir. 1958-ci (1337) ildə basılan «Bağçabanın rübailəri» (Robaiyyate Bağçeban) onun həyat fəlsəfəsi və düşüncə tərzini ifadə edir. «Doğru insan» (Ademe əsil) adlı əsərində, xalqın uğrunda sevgi ilə qoyulan əməyi, adamlığın ölçüsü sanmış, insana yarayan əmək olaraq, dəyərləndirmişdir. O deyirdi, cəmiyyət, öz xadimlərinin, mədəniyyət qulluqçularının və yaxşı adamların əməklərinin qədrini onların sağlıqlarında bilməlidir və onlar durarkən ağırlanmalıdırlar.

«...Bağçəban Azərbaycana və ana dilinə ürəkdən vurğun idi. Əlinə düşən fürsətdə sevgisini göstərər imiş. » (8) Ömrü boyuca, Pəhləvilərin diktatorluğu altında Azərbaycan türkəcəsində yazdığı əsərlərini, buna şahid çəkəmək olar. Səminə xanım «Şərq» dərgisi ilə danışığında müxbirin «ata- anasının fars dilli olub- olmamaları və yaxud farscanı Qafqazda öyrənmələri» sualına cavab verərkən belə vurğulayıbdır: «yox, onlar həmişə bir- birlərilə türkcə danışardılar. Ancaq anam İstanbulun Aya Sofiya məçidində, atam isə mollaxanada bir qədər yazılı (ədəbi) farscanı və Quran oxumağı öyrənmişdilər. Amma farsca danışmazdılar. Gerçəkdən farsca danışa bilmələri irana köçüb şıraza getdiklərindən sonranındır...»(2) O dövrun jurnalistlərindən biri, Bağçabanın Azərbaycan nehzəti haqqında coşğunluqla çıxış etməsini nəql edibdir. ***

Onun, 1953-cü (1332) ilin kudetasının ardınca gələn ağır və boğuntulu illərdə, qocalıq bilmədən «Heydər baba» adı ilə qurulmuş milli-mədəni dərnəkdə çalışması, milli-mədəni varlığımıza və ana dilimizə bəslədiyi sevginin dərinliyini

göstərir. Doktor Səlamullah Cavid «Dostlar görüşü» adlı kitabında dərnəyin fəaliyyətlərindən yazaraq çox hörmətlə Bağçabanın adını çəkibdir. Onun həyatından və çalışmalarından yığcam olaraq yazıb və Heydər baba poemasina yazdığı nəzirəni kitabında veribdir. (6)

Doktor Fərzanənin fikrincə **** «...bu ocağın o günkü ağır və təhlükəli şəraitdə işə başlamasının, bütün çətinliklər və uğursuzluqlarla bərabər, milli-mədəni varlığımızda dərin və unudulmaz izi və təsiri olmuşdur...Dərnəkdə iştirak edənlərin əsas vəzifəsi,... get- gedə daha da genişlənmiş və bir sıra dilçilik, folklor araşdırmaları və nəzm- nəsr əsərlərinin ortaya çıxmasına yol açmışdır...» (7)

Bağçaban gəncliyində «Molla Nəsrəddin» məcmuəsinin ardıcıl əməkdaşı olmuşdur. Üstəlik, Qafqazda çıxan türkcə dərgi və məcmuələrdə , o cümlədən Tiflisdə, Bakıda, İrəvanda nəşr olunan «Tartan-partan», «Zənbur», «Kəlniyyət», «Məzəli», «Babaye əmir», «Bəhlul», «Rəncbər», «Zəngi», «Qızıl şəfəq» kimi dərgi və qəzetlərdə satirik şeirlər və kəskin publisistik (ictimai- siyası yazı) məqalələrlə çıxış etmişdir. İrəvanda «Lək lək » dərgisin yaymışdır. (10-12)

Türkcə əsərləri 12 cilddir. (2) O cümlədəndir «Qızıllı yapraq», «Bayramçılıq», «Xor xor», «Erkək xalaqızı ya Gülsənəm», «Fədakar müəllim», «Cahangirlik nümayişi ya xud Teymurləng, bir pərdə vəhəşətli faciə (tamaşa)», «Şeyx Şamil nehzətindən (tamaşa)», «Pərvanənin kitabı», Şəhryarın «Heydər baba» əsərinə nəzirə və «Azəri Xəyyam» adı ilə nəşr etdiyi Xəyyamın rübailərinin türkcə tərcüməsi... (bax: örnəklər)




**son anlarında**

Mirzə Cabbar Əsgərzadə Bağçaban 1966-cı (1345) ilin Azər ayının 4-də , Tehranda yaşarkən vəfat etmişdir. Onun məzarı «Şəhr- Rey»də İbn Babuyə məzarlığındadır. Onun adı həmişə xalqımızın böyük humanist və pedaqoq oğlu kimi sonsuz hörmətlə yad ediləcəkdir! O, ömür boyu dilsizlərin dil açmasına çalışmışdısa da, özü dunyadan dili bağlı getmişdir.

Bağçabanın böyük oğlu, görkəmli musiqiçi və incəsənət xadimi Səmin Bağçaban, atasının həyatının sonku anlarını atası haqqında yazdığı «Çehrehaiy əz pedərəm» adlı bədii əsərində beləcəsinə vəsf edibdir:

«Azər ayının beşinci günü idi. Səminə və Pərvanə gecəni xəstəxanada atamın başı üstə keçirmişdilər. Gün ortadan sonra mən Evlin ilə xəstəxanaya gəldikdə onlar evlərinə qayıtdılar. ...Evlin yatağın qırağında oturub atamın əlindən tutub və tumarlayaraq soruşdu: «Baba, istəyirsiniz sizə türkcə bir mahnı oxuyam?» Atam lapdan özünə gəldi. Sancını unutmuşdu. Var gücünü yığaraq diqqətlə qulaq asırdı. Ağrıdan və coşğunluqdan titrəyən bir səslə dedi: « Oxu Evəlin... oxu... oxu...»

Evlin başını onun başına yaxınlaşdıraraq atamın eşidəbiləcəyi ən son mahnının ən sonuncu sözlərini, musiqi yaradıcılığının ən sonuncu zil- bəmlərini onun qulaqlarına axıtdı.

Od, yaxılar,
Yanqısını qazan bilər.
Bülbülün çəkdiyin
Gül nə bilir,
Xəzan bilər.
Xəstə bilir, gecələri nələr çəkər.
Leyla! Bu ağrını, yazan bilər!

Mahnı qurtardıqda atam diksinib yuxudan ayılanlar kimi, özünü ələ alıb şeirin son sətirlərinə etirazını bildirdi. Sancıdan səsi titrəyirdi. Sözünü deməyə tələsirdi: canım, Evlin, Evlin... «yazan bilər!» yanlışdır, kimsə bu ağrını mənim adıma yazmayıbdır. «Çəkən bilər!» düzgündür. Mahnının sonku sətirlərini belə oxumalısan:

Xəstə bilir gecələri nələr çəkər.
Leyla! Bu ağrını, çəkən bilər!

İkindi çağı Səminə ilə Pərvanə gəldilər. Evlin ilə mən evə qayıtdıq. Telfon zəng çalanda, evə təzəcə yetişmişdik. Qulaqlığı götürən kimi bacımın səsini tanıdım, ancaq səsi dəyişmişdi. Tutğün idi...Yağmurlu idi...Atam ölmüşdü». (3)

**yazını hazırlayan: Məmi (məmmədriza) Ələrdəbili**

## Qeydlər:

**Bağçabangıl**: Cabbar (Əsgərzadə) Bağçaban və həyat yoldaşı Səfiyə xanım Mir Babai, Səminə ə Pərvanə xanım (qızları), Səmin (oğlu), Evlin xanım (Səmin bəyin həyat yoldaşı)

*. **Mirza Qafarxan Zunuzi (Siyahpuş)** -Hacı Həsən oğlu Mirza Qafarxan Zunuzi adlım məşrütə inqilabçısı, Zunuzda anadan olubdur (1300 hicri qəməri ilində).İranda boğuntu və işsizlik üzündən Arazın o tayına köçüb, Məşrutə hərəkatı başladıqda geri qayıtmışdır. O, Heydər Əmioğlunun qızğın tərəfdarlarından idi. Heydər xan İrandan çıxandan sonra qara geyinrədi, buna görə Siyahpuş adlanmışdır.

Qafarxan böyük natiq, yazıçı və şair idi. Çağdaşları (o cümlədən Bağçaban) onun qorxmaz və coşğun bir inqilabçı olması həqqində hekayətlər etmişlər. (bax: örnəklər) Kəsrəvinin yazdığına görə (On səkkiz il Azərbaycan tarixi) 1286-ci ildə Təbrizidə Məqsudiyyə məhəlləsinin Meydan məçidində Ətabək Əzəmi öldürən Təbrizli Abbas ağa Sərrafın yas mərasimini yığışdıranda çıxış edib və aşağıdakı şeiri oxumaqla xalqı coşdurmuşdur:

Arxadaşlar, haray salın, cuşə gəlsin kainat
Ta cahanə sabit olsun, bizdəki əzm-u səbat
Zillət əmdə mürəccəhdir şərəfli bir məmat
Millətə lazım deyildir, beylə əfsürdə həyat
Zülm-u istibdad dövri dərd-u yəəs əyyamıdur
Arxadaşlar, qan tökün, qan tökəməyin əyyamıdur.

Ölümdən can qurtarıb bir sürə Osmanlıya köçmüşdür. İstanbulda Nurullah xan Yekani ilə birgə çalışmışlar. İrana dönəndən sonra jandarm sahib- mənsəbi kimi işləyirmiş. 1298-ci illdə major olarkən Azərbaycanda ikinci yeni üsul üzrə qurulan məktəbi təəsübkarların qarşıdurmalarına baxmayaraq Zunuz şəhərində Açmışdır.
Kəsrəvi yazır:...Sərdar Mötəzed (Azərbaycan valisinin müvəqqət olaraq canşini və qoşun başçısı) sərbazların geyimləri və aylıqlarından oğurlayırmış, onların sayısını olduğundan çox göstərməklə artıq qalan çörək pullarını da özünə götürürmüş...İşın üstü açılmışdısa da, çəkinmirdi. Sərbazların çılpaq və ac yalavac dolanmalarını, üzünə gətirmirdi. Məşərutə (hərəkatı) başlanqıcının adlım döyüşçüsü və yaxşı natiq, ordu majoru, Zunuzlu Mirza Qafarxan 1919-cu ildə (1298) sərbazxanaya görüşə gəlir. Sərbazlar onun qabağını kəsib, ac və əyni yalın olmalarından gileylənirlər. Qafarxan bir söz demədən sərbazxananın ortasında hündür bir yerin üstünə çıxır. Sankı qəbristanlığa girmişdi, uca səs ilə «allahommə əğfəri lilmöminin vəlmöminat » duasını oxuyur. Sonra üzünü dövrəsinə yığışmış sərbazlara tutub deyir: soruşacaqsınız, burası qəbristanlıqdırmı?! Bəəli bura qəbrıstanlıqdır, sizlər də onun ölülərisiniz. Deyirsiniz geyiminiz yoxdur, ölüyə geyim nə gərək?! Başmağınız yoxdur, ölüyə başmaq nə gərək?! Sizlər ölməmişsinizmi?! Pulunuzu yeyən, sizləri çılpaq saxlayan yalqızın birisi deyildirmi? Diri olsaydınız, tutub sürüyə- sürüyə gətirib həqqinizi ondan alardınız! Sərbazlar, bu sözlərin əsərində Sərdar Mötəzedin evinə sarı üz qüydular, hesabdarı Mirat Əlsəltənə ilə birlikdə çox zəlil halında gətirib sərbazxanada saxladılar... Bu həngamənin içində Qafarxanı göndərən Sərdar İntsar özünü yetirib onları dilə tutur, Mötəzed ilə Mirat Əlsəltənənin işlərinə yetişəcəyinə söz verir, üç gün içində, sərbazların yubanmış cirələrini verməyə və aylıqlarını ödəməyə boyun olur. Beləliklə də qopmuş fırtınanı yatırdır...

Artıq 1299-cu ildə İngilis əlaltılarının kudetası həyata keçmişdi və Rizaxanın hökuməti formalaşmağa başlamışdı və belə davranışlara və inqılabi işlərə yer yox idi. Bu zamanlar Qafarxan sərhənglikdən çıxarılıb, Tehranda pinəçilik ilə yaşayırdı, və iri xətt ilə dükanın kətəbəsində yazdırmışdı: « Dünənin sərhəngi, bu günkü pinəçi, Mirza Qafar Zunuzi » (Sərhənge diyruzi, piynəduze emruzi, Mirza Ğəffar Zonuzi). Bunu Rizaxana çuğullayırlar. O qafarxan ilə danışandan sonra, üzdə onu işdən çıxaranları toparlayıb yenidən işə götürülür. Başqa rəvayətə görə dərəcəsini azaldıb və ondan istəyir ki dinməz söyləməz sağır kimi başını salsın öz işinə və ayrı işlərə qatılmasın. 1934-cü (1313) Mirza Qafarxan səssiz- sovsuz, məşkuk bir halda zəhərlənib məhv edilir. (صمد سردارینیا: کتاب «مشاهیر آذربایجان»)

http://zunuz.blogfa.com/post/18

*- **Mirza Nurlla xan Yekani**- Nurulla xan Yekani 1879-cu ildə (1258) Mərəndin Yekanat bölügündə anadan olmuşdur. Gəncliyində yerli feodallarin əlindən və iş dalıca o taya keçmişdir. Orada olarkən zavodlarda və mədənlərdə işləyirmış. 1900- cu ildə Nəriman Nərimanofun yardımı ilə qurulan «İctimaiyyun Amiyyiun komitəsi»nin mərkəzi kadrı kimi çalışmışdır. İnqilabi hərəkatın güclənməsi ilə Təbrizə.gəlib Əli Müsyo və Şeyx Məhəmməd Xiyabanı ilə görüşüb danışdıqdan sonra, başqa aktivlərlə birlikdə, (sonralar «Qeybi Mərkəz» adi ilə tanınmışdır), Təbrizin «İctimaiyyun Amiyyun» hizbinin təməlini qoymuşdular. Məşrutə hərəkatında Fədai başçısı kimi Səttarxanın silahdaşları sırasında döyüşmüşdür. Şeyx Məhəmməd Xiyabanı başçılıq edən Azadistan hərəkatında fəalcasına iştirak etmişdir. Yekani, hərəkatı başçılıq edən kadrların içərisində yoxsulların təmsilçisi idi. Xiyabanı öldürləndən sonra həbsə alnıbdır. Bir iddə qabaqcıl adamların yardımı ilə dustaqdan qurtarıb Xorasana gedib və orada «Milli komitəyə aparılıbdır. Kolnel Məhəmməd Tağı xan Pesyan başçılıq etdiyi üsyanda Yekani də iştirak etmiş olur. Üsyan yatırılandan sonra Azərbaycana- yaşadığı kəndə qayıtmışdır. Təbrizdə Lahuti başladan hərəkata qoşulub və yenidən həbsə alınır. Uzun müddət zindanda saxladıqdan sonra Yekanatdan başqa bir yerə getməmək təəhüdi alıb və orada nəzart altında saxlanılır.Kənddə olduğu zaman məktəb açmaq və kəndlilər arasında azadlıq əfkarını təbliğ etməklə mübarizəsinə davam etdirirdi.

1320- ci ildən Mərənd, Xoy və Salmas bölgələrində Tudə hizbinin təşkilatlarını yaradıb və Birinci Azərbaycan Əyaləti konfransının cələsəsini açıbdır.

1324- cü ildə Azərbaycan Demokrat Firqəsi yaranandan sonra Azərbaycan Demokrat Firqəsinin birinci qurultayına nümayəndə, mərkəzi təftiş komisionuna üzu, Milli Konqrənin nümayəndəsi və Milli Müəssislər Heyətinin üzvü seçildi. Milli Hökumətin tədbirləri və habelə Yekaninin tədəbirləri nəticəsində Xoy şəhərinə lüləkeşlik edilib su çəkildi, yetim uşaqlar üçün tərbiyə evi təşkil edildi və şəhərdə yeni məktəblər açıldı...

Milli Məclisin təşkili zamanı Azərbaycan Milli Məclisinə nümayəndə seçilmişdir. Daxilə nazirliyinin müavini və Milli Hökumətin qərarı ilə Urmu şəhərində nəzmiyyə rəyisi vəzifələrində işləmişdir. Mərkəzi dövlət Azərbaycana qoşun yeridib və oranı işğal edəndən sonra, Məhəmmədriza şahın cəza dəstələri qocaman inqilabçıya divan tutub olmazın işkəncələr vermişlər. Yekanını dar ağacının altına gətirərkən onun dabanlarına vurulmuş mıxların yerindən hələ də qan axırdı.

Sələm olsun Nuralla xan Sərhəngə
Vətən səhnəsində o girdi cəngə
Sığal verdi öz atıynan, tüfəngə
İgidlər yerisən, sən Qaladağı (Urmulu Aşıq Əli abdiyni)

Səttarxan eylədi fəndi
Nurulla xan doğradı qəndi
Sərkərdələrin içındə
Yaşasın Hafiz əfəndi (xalq qoşmalarından)

(Azərbaycan Demokrat Firqəsinin nəşri: Azadlıq yolunun mübarizləri /Əbdülhüseyn Nahidi Azər: Se Mobareze Məşrutə)

*- **Əbülqasım Fiyuzat**- 1267- cı idə Təbrizdə anadan olubdu.Gənc yaşlarından müəllimçiliyə başlayıbdır. «Təcəddüd» qəzetinin yazıçısı və bir sürə müdiri idi. Azadistan hərəkatında fəallcasına iştirak edibdir. Əbülqasım Fiyuzat da Yəkanı və Məhəmməd Tağqı Rəfət kimi Xiyabanının başçılığı altında qurulan (20 nəfərə yaxın) rəhbərlik heyətində iştirak edirdi və maarif rəyisi işləyirdi. Xiyabanı öldürülüb və hərəkat tapdanandan sonra, başçı kadr və Xiyabanının müşaviri olmasına baxmayaraq nehzət həqqində susan adamlardan biri olmuşdur. Sonralar Təbrizin maarif idarəsinin rəisi olub, Təbrizdə ilk peşə məktəbinin əsasını nəccarlıq və nəqqaşlıq kılası dair etməklə qoyubdur. Şiyrazın maarif rəisi olarkən Bağçabanın yardımı ilə Şiyrazın uşaq bağçasını qurmuşdur. (Əbdülhüseyn Nahidi Azər: Conbeşe Azadistan)

**- (1948) 1327- ci ilın bəhmən ayının 15 də Şahın canına qəsd ediləndən sonra, müddəi əl ümumunn istəyinə görə şübhələndikləri adamlar içərisində **Bağçaban da, tutulmuşdur**. («Yaddaşthaye Qasem Ğəni» cild 3)

** «Seyre komonizm dər İran» adlı kitabda belə bir qeyd var: 1942- də (1321) Tehranda, Hizbe Tudənin birinci əyaləti konfransında iştirak etmiş **ğeyri hizbilərdən biri də Cabbar Bağçaban idi... O öz çıxışında Rüsiyəyə (Şorəviyə) şiddətlə toxunduğuna görə oradakıların etirazına səbəb oldu...**

***- **Azərbaycan Nəhzəti**- Cəfər Mehdi Niya öz kitabında jurnalist Kərim Roşəniyandan belə nəql edibdir: (1323- dən sonrakı illərdə)...Cəməiyyətlərdən biri «Azərbaycanın vəziyyəti, və Azərbaycanlıların istəkəlrinin yerinə yetirilməsini dövlətdən təqaza etmək» mövzusunda qəzetçiləri müzakirə etəməyə çağırmışdır. Darya qəzetinin müdiri Ərsəncanı gedəbilməyəcək idi, mən onun kartı ilə cəməiyyətin yerinə (Fərhəng Xiyabanında) getdim. ... Doktor Müsəddiq, Zəkauldovlə Ğəffarı və Şeyx Hüseyn Lənkəranı və bir çox tanınmış adamlardan bu iclasa gəlmişdilər.... **Cabbar bağçaban və bir neçə nəfər başqa Azərbaycanlı jurnalistlərdən çox coşğunluqla çıxış etdilər. Onların sözlərindən, Azərbaycan nehzəti ilə müvafiq olduqları anlaşılırdı**... (Zendegiye siyasiye Rəzmara. Negareş və təlife Cəfər Mehdiniya Tehran 1363)

*** * ... **Şehriyarın«Heydər Baba»** əsərinin çapdan çıxması bir il olar olmaz Tehranda bir qrup Azərbaycan aydınları tərəfindən « Heydər Baba dərnəyi » adında ədəbi- mədəni ocaq yarandı. **Maarif və ədəbiyyat xadimlərindən qocaman maarifçı «dilsizlər və sağırlar» məktəbinin banısı Mirza Cabbar Bağçaban (Əsgərzadə)** Doktor Səlamullah Cavıd, Bulud Qaraçorlu Səhənd, Doktor Əli Azəri, Doktor Hüseynquli Katibi, Gəncəli Səbahı və mən də dərnəkdə iştirak edirdik. Sonralar Əli Təbrizi, Savalan və başqaları da qoşuldular... Neçə il sonra «Yadiy əz Heydər Baba» kitabı nəşr edildi.» «Böyük milli şaır və ictimai xadim Etimad Natiq də dərnəyin çox ciddi və yorulmaz davamçılarından biri idi.» ( 7) (Doktor M. Ə. Fərzanə)

«... 1963-cü (1342) ildə Dəstur- Zəban (Dili bilgisi) kitabımı Təbrizin Şəms yayınları çap etdi. Kitabın bir neçə cildini imzalayıb dərnəyin üzvlərinə töhfə apardım. **Dərnəyin ağ-saqqalı Mirza Cabbar Bağçaban** ayağa qalxıb cibində olan pulları mizin üstünə boşaldıb başqa əzadan da belə etmələrini istədi. Mən də əlimi cibimə uzaldanda əlimdən yapışıb qoymadı və dedi: xahiş elirəm bu pulları kitabın çap etməsi məxaricinə yardım kimi götür... Mən əlini öpüb qəbül etmədim». (7) (Doktor M. Ə. Fərzanə) Bu zaman qocaman Cabbar Bağçaban yetmiş səkkiz yaşlı bir dünya görmüş kişi idi.

## Mirzə Cabbar (Əsgərzadə) Bağçaban həqqində dəyərli qaynaqlar, faydalı bağlantılar:

(yazının hazırlamasında və habelə örnəklərin yığmasında, aşağıda verilən qaynaqlar əsasında tərtib edilmiş veb səhifələrindən ya bilavasitə qaynağın özündən istifadə olunubdur.)


1- «زندگینامه جبار باغچه‌بان به قلم خودش» (نشر سپهر، 1356، 191 صفحه)
رئداکته اولونموش یئنی نشری: «روشنگر تاریکی‌ها»- (1389)- کیتابیندا، «خود نوشت‌های (یاد نوشته‌های) جبار باغچه‌بان» باشلیغی آلتیندا
2- ثمینه باغچه‌بانین «دایره المعارف اسلامی» کیتابیندا جبار باغچه‌بان حقینده یازدیغی مقاله / گفتگو با روزنامه شرق / گفتگو با روزنامه اعتماد
http://www.yadeyar.ir/wwwroot5/order3.asp?o2=539
http://www.danulduzu.20m.com/7ciSayi/YQ_Cabbarbaxchaban.htm
http://www.magiran.com/npview.asp?ID=2514066
http://etemadnewspaper.ir/Released/91-03-16/279.htm
3- ثمین باغچه‌بان: کتاب «چهره‌هایی از پدرم» - انتشارات نشر قطره، تهران، 1382
4- بیوگرافی جبار باغچه‌بان- جمعیت ناشنوایان ایران

http://www.idsf.ir/1389-01-23-04-27-59.html?showall=1
http://www.idsf.ir/1389-01-23-04-27-32.html?showall=1
http://deafedu.blogfa.com/post-62.aspx

5- مجله زبان – تهران 1323 (1944)
6- سلام اوللاه جاوید:« دوستلار گؤروشو»، ادبیات اوجاغی- 1359
http://ishiq.net/wp-content/uploads/cavid-dostlar-gorushu.pdf

7 - محمد علی فرزانه: «گذشت زمان» کتاب خاطرات / حیدربابانین ایزی ایله- وارلیق ژورنالی 1371- پاییز/ میر مهدی اعتماد- وارلیق ژورنالی یای 1375
http://pensouthazerbaijan.info/images/PDFs/ustad_farzaneh_xatirat.pdf

http://www.turuz.info/Her qapidan/242-Ustad Farzanenin Xatiralari

8- تیمور پیر هاشمی: باغچه‌بان، وارلیق ژورنالی، 1358- جی ایل، دئی آیی، 9 - جو سایی‌سی

9- میرزه ابراهیموف: جنوبی آذربایجان ادبیاتی آنتولوگیاسی- ایکینجی جیلد-علم نشریاتی، باکی 1983

**8- Мирзә Ибраһимов: Чәнуби Азәрбајҹан Әдәбијјаты Антолокијасы, 2-чи чилд Елм нәшријјаты 1983**

10- زاهد اکبروف: جبار باغچه‌بانین سئچیلمیش اثرلری- باکی، یازیچی 1991

10- Cabbar Bağçaban. Seçilmiş əsərləri şeirlər / Tərtibçi və ön söz. Z.Əkbərov.- Bakı. Yazıçı, 1991.

11- ذین‌الدین محرماوف: ایروآندا مکتبدارلیق و ماعاریفچیلیک. باکی 2010

**11-** Ziyəddin Məhərrəmov: İrəvanda Məktəbdarliq və Maarifçilik
http://www.anl.az/el/m/mz_im&m.pdf

12- لک لک (لئیلک) ژورنالی- لاتین الیفباسیندا یئنی نشری:

12- Ləklək (Leylək) jurnalı- latin əlifbasında yeni nəşri:
http://elibrary.bsu.az/kitablar/919.pdf :

13- http://www.iravan.info/irevan_ziyalilari/

14- باشقا باغلانتی‌لار و یازی‌لاردن:
صمد سرداری‌نیا: مشاهیر آذربایجان

14- başqa bağlantilar və yazılardan:
http://www.turuz.info/SHeir/0086-(2)Xeyyam-azerbaycan%20turkcesi(1.208KB).pdf
http://www.turuz.info/SHeir/0086-(5)Xeyyam%20Rubaileri-Az.Turkcesi-ebced.pdf
http://www.handicapcenter.com/?page_id=788
http://az.wikipedia.org/wiki/Cabbar_%C6%8Fsg%C9%99rzad%C9%99
http://amirchehrehgosha.blogfa.com/post-40.aspx
http://forum.patoghu.com/thread34812.html
http://www.jazirehdanesh.com/find-19.562.756.fa.html
http://www.shahidi.blogfa.com/post-4.aspx
http://www.shahidi.blogfa.com/post-10.aspx
http://elchinkitab.blogfa.com/post-30.aspx

# CABBAR ƏSGƏRZADƏ BAĞÇABAN
## Azərbaycan Türkcəsində yazdığı əsərlərindən örnəklər

### SABİRƏ

Fəxr edər xaki-məzarın zati-pakınla sənin,
Çün şərafətyab olubdur zati-pakınla türab.
Ol qara xaki ışıqlandırmısan xurşidvar,
Bizləri zülmətdə qoydun, eylədin sən ehticab.

### BALACA FELYETON

VAİZ:
Xəlqə vəz eyləyirəm hiyləvu əfsanə ilə
Möhtərəm ayları ətrafıma xəlqi yığaram.
Bağlaram yaxşıca təqlid ipinə onları mən,
Mən hara noxtalı olsam, oları noxtalaram.

HƏKİM:
Seçməsəm kim naxoş olsa mən onun illetini,
Onda dərmanlarımı hər qədər olsa sınaram.
Bir zaman gördüm əlacım ki, kəsildi ondan,
Onu çox hörmət ilə qəbrə tərəf yollayaram.

MOLLA:
Gündə bir övrətə mən on kərə kabin kəsərəm,
Hərəsindən oların altıca şahi alaram.
Hey Qurandan, namazından, nəzrindən yetişir,
Xərclərəm gen boluna saqqalı əlvan boyaram.

MƏRSİYƏXAN:
Başlaram şur ilə şəhnazı səri-minbərdə,
Hey ”ağam vay” deyərəm, qışqıraram, bağıraram.
Hər əda etməli olsam, bu sözün müxtəsəri,
Ümmətin pulun alıb gözlərini isladaram.

ƏYAN:
Məni tənqid eləyən olsa qazetlərdə, yəqin
Pul qoyub çalışaram ol işin üstün açaram.
Nə zaman ki, o işin müxbirini tapdım mən
Bir beş-on şahi verib onu mən tez tapdadaram.

HƏVƏSLİ:
Nə qədər olsa çətin rol, onu mən məşq eləməm,
Çıxaram səhnəyə hər tövr olusa oynayaram.
Mən qrimsiz olaraq yaxşı qraxmallı ”aşıq”
Naizys olmasa da, orda özümdən toxuram.

BƏZZAZ:
Nə qədər kasıb adam olsa, onu aldadaram,
Arşınında çitimin bir şahi artıq alaram.
Nisye olsa da heç yoxdu ziyanım onda,
Veksil allam, mən onun üstünə tənzil qoyaram.

BAQQAL:
Dükanımda satılan qatıq əgər köhnəlsə,
Torbaya dolduraram, mən onu bir də sataram.
Acımış yağ nə qədər olsa məəttəl deyilem,
Daha da xeyr eliyər mən ona quyruq qataram.

AŞBAZ:
Yay günü bozbaş əgər satılmayıb qalsa
Mən onu duzluyub üç gün eləce saxlıyaram.
Elə ki, gördüm ona azca qalıb qurd düşşün
Onu mən tapdalayıb lülə kabab sazlayaram.

QƏNNADI:
Nə qədər zirt-zibil, ya şəkərin olsa kəfi,
Onu sallam patıla bir-iki baş qaynadaram.
Sataram qırmızı saqqallar ilə kəndlilərə,
Mən xəmirə adına çoxlu uşaqlar qıraram.

DƏLLƏK:
Biri bir şahi-həcamət qoyaram, diş çəkərəm,
Gəlib solqan salaram, gahi də mən qan alaram.
Ayaq üstündə gəzib müştərini axtararam,
Harada rastıma gəlsə orada xıxladaram.

PAPAQÇI:
Börkçülükdə mən özüm kamil olan ustadam,
İstəyirsə kim ona bircə dənə börk qayıram.
Çəkərəm vəzni ola düz on iki girvənkə,
Deməyin əsgik olan vaxtda mən pul alaram.

İRƏVAN AYAQÇISI:
Nə qədər kəndli, kəsəkli tökülüb gəlsə bura,
Arabaynan şalağı müftəcə ondan alaram.
Danışıb istəsə haqqın yazığım gəlməz ona,
Qarnına bircə təpik, boynuna bir şip salaram.

BAŞMAQÇI:
Dikdaban başmağıma pul verən adam olsa,
Sağrının altına göndən dəxi astar qoyaram.
Dost adam olsa o yerdə təməi az elərəm,
Hər taya bir-iki girvənkə qədər nal çalaram.

DƏRZİ:
Qonşular bir ”plaş”a beş manat alsa, mən özüm
Üç manata bir uzun don tikərəm də, sataram.
Bircə palton olar on gündə bacarmaz tiksin,
On dənə paltonu mən bir günə hazırlayaram.

NƏCCAR:
Xözeyinlər hamsı qonşuların işlədiyor
Men özum yoxsa olardan da gözəl iş yonaram.
İndi amma pilləkansazlığa da yoxdu yolum,
Razıyam iş verən olsa mən odun da yararam.

BƏNNA:
Altıca abbası hər gündə mənim haqqımdı,
Sübhdən axşama tək gün qabağında yanaram.
Genə hər vaxt uşaqlar qaralır aclıqdan,
Mən özum də ilin on payını lap ac qalaram.

İRƏVANLI ZAKIR:
O zamandan ki, mənim adıma şair dedilər,
Ağlıma gəlsə mənim hər nə cür hədyan, yazaram.
Tazə məzhəb sözünü səbt edərəm novhəmdə,
Urəfaya dolaşıb, sinə vurub, baş açaram.

DƏRVIŞ :
Çarsuda, küçədə, ya qəhvədə, ya məsciddə
Nacağı tovlayaram, ağzını birdən açaram.
Pul yığıb, cuşə gəlib, şövgilə "yahu!" deyərəm,
Çox tüpürcək dağıdıb xalqın üzün isladaram.

QAZETÇI:
Mən qazet yazmağa çox zəhmət ilə izn alaram,
Çalışıb milləti qandırmağa sözlər yazaram.
Almaz amma nədən isə bu Müsəlmanlar onu,
Əli qoynunda çəkib ah, məəttəl qalaram.

## MOLLA VƏ HÖRÜMÇƏK

Molla bir gün hörumçəyin yanına
Getdi, ta etsin iltimas ona.
Dedi: Agah olun hörumçəklər!
Sizdən eylər gilayə milçəklər.
Uzməyin canların oların siz,
Sormayın qanların oların siz.
Var oların da siz kimi canı,
Yeməsi, içməsi, əti, qanı.
Oları siz mənə bağışlayın,
Bu fəna işdi çünki boşlayın.
Çun hörüçək bunu belə gördü,
Başını qaldırıb baxıb güldü.
Dedi: yoldaş! Nə çarə? Siz deyiniz,
Sonra bizdən siz iltimas ediniz.
Dedi molla: ki, bəndə molladır,
Sahibi zöhd, əhli təqvadır.
İltimasım budur ki, əl çəkəsiz,
Milçəyə bir də zülm etmiyəsiz.
Başını tovladı hörümçək ta
Dedi: zəhmət çəkibsən, ay molla!
Sən özün qanını müsəlmanın
Sorma qardaş! Varınsa vicdanın.
İltimasın bizə qəbul olmaz,
Dediyin səndə çün vüsul olmaz.
Pisdisə özgənin qanın içmek?
Sən özün get, qan içmədən əl çək!

## TƏFAXİR

Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Uzadıb saqqalımı, peysərimi bərkidərəm,
Gündə min tövr müsəlmanlara təzvir edərəm,
Həq danışsa kim, onu fövrcə təkfir edərəm,
Haşa lillah! Ki bu əxlaqımı mən tərk edərəm.
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Yeyərəm mən o qədər, dünbəyimi saz edərəm,
Boyaram saqqalımı, həm başımı daz edərəm.
Gündə min şöbədəyə milləti ağaz edərəm,
Girişib hiyləyə mən onlara min naz edərəm.
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Nə qədər başa sala milləti bu əhli-qələm,
İş görənməz, bu yəqinimdi olar xamdı hələm.
Bircə yol qırmızı saqqalımı mən tərpədərəm,
Kef mənim, nəəşə mənim, hər nə ki, bilsəm edərəm.
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Nə qədər biclik əgər, gətdisə onlar əmələ,
Düşməyib başa bu millət hələ heç bircə belə.
Bəs mənim bicliyimi bilmir olar heç hələ.
Qurmuşam mən olara gör necə bir zorba tələ.
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Minmişəm onları, hər bir tərəfə mən sürərəm,
Hər nə onlar qazanır mən yeyərəm, kef görərəm.
Soraram qanlarını, canlarını həm üzərəm,
Kimsə bilməz nə qədər gizlin iş olsa görərəm.
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Müftə çay, müftə şəkər, müftə badımcandı mənim,
Müftə aş, müftə plov, müftə fisincandı mənim,
Müftə hörmətdi mənim, müftəcə qəlyandı mənim,
Müftədir rəng, həna, saqqalım əlvandı mənim.
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

Müxtəsər söyləməli, gəldi genə mahi-siyam,
Piyşi-çeşmimdə vurar halqa müridan tamam.
Vəzi-əfsanə ilə xəlqə genə dam quraram,
Kisə doldurmağa bir vaxt gəlib xətmi-kəlam,
Küpədə milləti qatıq kimi mən çalxalaram,
Kərəsin işlədərəm, ayranını həm yalaram.

## KİŞMİŞ VƏ MOLLA

Bir ata, bir oğul və bir qardaş
Üçü bir yerdə eylər idi məaş.
Var idi hər üçü məhəbbətdə,
Yeyib-içməkdə, sözdə, söhbətdə.
Hər üçü pak, möminü-dindar,
Əhli-təqvavü zöhdü-xoşkirdar.
Qazanar hər üçü bə şövqi-səlim,
Gətirər bir yerə edər təslim.
Üçü də bir xəyalilə dolanar,
Bir-birinin rizasını qazanar.
Bir-birin hər üçü edər -təkrim,

Harda görsə edərdilər təzim,
Kim oları görər bu halətdə,
Belə bir ittifaq, təfqətdə,
Mat olub eyləyirdi bir əhsən.
Fətəbarək oxurdu hər düşmən.
Olara kimsə əl tapanmazdı,
Ayrılıq daşını atanmazdı.
Bu məhəbbət bir az davam etdi,
Bir az onları şadkam etdi.
Sonra bu ruzigari-şum, dəğəl,
Gətdi başlarına qəribə əməl.
Əz qəza bir nəfər müsəlmana,
Üçü də dəvət oldu ehsana.
Döşənib süfrələr, plov hazır,
Əfşərə sirkə küftə və çaşır.
Var idi cürbəcür mürəbbalar,
Qismət olmuş lətif tutmalar.
Qatıq aşı, qurutlu şorbadan,
Heç yeyən doymaz idi dolmadan.
Yeməmiş kimsə cücənin ətini,
Demək ilə bilərmi ləzzətini.
Söz gödək, yaxşı sahibi-xanə,
Bəzəmişdi təami şahanə.
Var idi orda xəlqdən başqa,
Xəlq ilə beylə bir nəfər molla.
Oxudu bir dua əlin atdı,
Tikəni vurcağın qalaq yatdı.
Nəzəri elə ki, xuruşa düşüb,
Plovu gördü kişmiş ilə bişib.
Tikəni saxladı əlində o dəm,
- Ey camaat! Ümum qalə nəəm.
Vardı bir məsələ bu yerdə çətin,
Mən deyim, siz də huş ilə eşidin.
Buyurur Fazile Badımcanı:
«Kişmiş eylər, haram ehsanı»
Düşdü ol dəm oraya cəng, cədəl,
Məclisin iki payı çəkdilər əl.
Molla ta məclisi görüb xali,
Özgə bir rəngə düşdü əhvalı.
Dedi: «Səd şükr, ey xudayi-cahan,
Yaradıbsan əcəb gözəl heyvan».
Tikəni vurdu, bığların burdu,
Dünbəgin saz edib də doldurdu.
Bu yedi, özgələr durub baxdı,
Birbəbir ağzının suyu axdı.
Molladan başqa, həm müridanı
Yedilər ləzzət ilə dolmanı.
Yeməyənlər çəkirdi göz dağı,
Çünki bərk olmamışdı qurşağı
Molla tainki lap yedi doydu,
Fatihə verməyə bina qoydu.
Süfrələr qalxdı, boş qalıb orta
Sulu qəlyan gəlib vurub xorta.
Molla qalxdı ayağa iş bitdi,
Hər kəs öz karına durub getdi.
İndi bax, burdadı işin tələsi,
Kimə düşdü yükün ağır şələsi.
İki qardaş və bir nəfər övlad
Çəkdilər bu qəziyyədən fəryad.
Biri təqlid edib Badımcana,
Birisi həm ağa cibişdana.
Biri etdi sulotqanı təyid,
Dedi: mən etmişəm ona təqlid.
Hərə bir fikrə oldular malik,
Hərə bir məsləkə olub salik.
Sözlərin olmuyub mütabiqəti,
İttifaqın gedib müvafiqəti.
Üçu də mat, çarəsiz qaldı,
Ordaca yad olub da ayrıldı.
İndi təqsir bu müəmmada
Oldu kişmişdə, ya ki mollada?

## BAŞI BATMIŞ KİŞİ

Molla əmu! Bu başı batmış kişi,
Sinni keçib atmışa çatmış kişi,
Qeyrətü-namusunu atmış kişi,
Başımı min əngələ qatmış kişi,
Saldı genə tazəcə bir əngələ,
Ta nə qədər mən eləyim həvsələ?

Məşqə düşübdür ki, gedə Məşhədə,
Orda edib siğə, çata məqsədə.
İstəyirəm getmə deyim hər vədə,
Mənlə o saat eyləyir ərbədə:
Kəs donuzun doğduğu, dinmə hələ,
Mən qayıdınca burada səbr elə.

Söyləyirəm xərcimizi barı çək,
Yoxdu-deyir-heç qara pul bir çətək,.
Mən gedirəm şahi- Xorasanacək
Gər yeməyə olmasa, arvat, çörək,
Fəhləlik elə dalına al şələ,
Sən də adamsan, qazanıb xərc elə.

İndi uşaqlar eləyirlər fəğan,
Vallah, acından gecə yatmır inan.
Yalvarıram, ay kişi, Məşdi Zaman,
İnsaf elə, bir yazığa, əlaman.
Top kimi hərdəm açılır: çıx çölə!
Üstümə az baş-gözünü silkələ.

## ŞILLAX

İrəvana təzə bir doktor gəlib- Əbdülhüseyn
Hər vizitdə üç şahı aldıqda xidmət eləyir.
Çünki, Əzrail ilə dostluq qatıb, qardaş olub.
Qəbzi-ruh etməkdə Əzrailə fursət verməyir.

## BİR ŞEYXİN NALƏSİ

Lap ciyərim yandı, mənim ay havar
Qalmadı qövlümdə mənim etibar.
İndi, sabah mömün ölub qurtarar,
Ərsəyə ta çöhrətəraşlar çıxar,
Başıma min günə oyunlar açar,
Şöhrəti-rəsmim pozular, puç olar.

Var yeri əşkim, yerinə qan axa.
Kəşf olunur eylədiyim iftira.
İşləməyir kizb, düruğü riya,
Çöhrətəraşlar eləmir iqtida.
Vaqi-cəmaət səfimiz boş qalar,
Ax! Belə halət məni dildən salar.

Fitrə-zəkatın pulu əldən çıxır,
Mali-imamsız cibimiz boş qalır,
Dəmbədəm işlər özü üstün açır,
Cümlə müridan yanımdan qaçır,
Noxtanı bunlar hamısı qırsalar,
Bunları kim bir də tutub noxtalar?

Sünnü və şiə sözünü atdılar,
Birlik ilə milləti aldatdılar.
Malı mala, canı cana qatdılar,
Aşımıza yaxşıca zəhr atdılar.
Beylə ki, bunlar hamı yoldan çıxar,
İndicə bağrım, ay aman, çatdıyar.

Razı deyillər ki çavuş car sala,
Qapsıya çarsı-bazarı səs-səda.
Erməni, gürcü, həm urus mat qala,
Azma yazıqsan, yolunu, ay bala!
Şəxs ki, Dəccalı sənin tək danar,
Həşr günü cümləsi odda yanar,
İşləri onda qanar.

**MAZAQ**
Zurnaçı, dünbəkçi elər arzu: olsun zifaf,
Bir beş-on şahi alıb getsinlə dünbək çalmağa.
Mollalar da arzu eylər ki, bir mömün ölə,
Dünbəyi doldurmaq ilə yaxşıca kam almağa.

## ÇIXIR

Sanma ki, bu qazet-mazet hər günü təkbətək çıxır,
Hər günü min oyun açır, hər günü min kələk çıxır.

Gəlib siyasəti yazır, gah deyir məişəti,
Gah çağırır, sənaətə, məktəbə də kömək çıxır.

Tərif edir teatrı, səhnəni xalqa göstərir,
Möminə rişxənd edir, saqqalı bir çərək çıxır.

Gah ülamayə lağ edir, əksini jurnala çəkir,
Bir də baxırsan ortaya molla uzun ətək çıxır.

Rəml atan, dua yazan, tas quranla cin tutan,
Doğuzduran cadugərə gör hələ min, düdək çıxır.

Rəğbəti yoxdu mollaya, dini, təriqəti danır,
Molladakı kəramətin birinə mincə şəkk çıxır.

Öz bəbəyindəki tiri qılca da görmüyür bular,
Molla gözündəki qılı arifə bir dirək çıxır.

Mollaya rişxənd edir, saqqalına baxır, gülür,
Saqqalı qırxdırır özü, buğlarına yedək çıxır.

Molla danışdığı sözu bir pula almayır kişi,
Özləri hər nə söyləsə qəşəng, banəmək çıxır.

Özləri səy edir fəqət öz sözünü keçirməyə,
Çalxalayır maarifi, xəlbir olub ələk çıxır

Molla deyəndə bizlərə elmü-ədəb gərək deyil,
Dargöz olur ələkləri, yırğalayır kəpək çıxır.

Vazehi lap budur sözün: hər nə ki, var zəmanədə,
Vacib edir musurmana, cümləsi də gərək çıxır.

Dəmir- dümur, şüşə- müşə, maşın- muşun, alış-veriş,
Sözlərinə balon kimi hey veriyör bəzək, çıxır.

Yatma, oyan, gətir-apar, əkib-biçib, çalış-vuruş,
Hey üyüdür, tökür sözü, gör necə bir, zirək çıxır.

Molla ilə qazetçilər bir yerə su axıtmayır,
Bu iki firqənin sözü, baxış ilə kəsək çıxır.

Qazetçilər deyir: balam molla, bu xalqa rəhm elə,
Molla deyir ki, kəs gədə, burda mənə çörək çıxır.

Çay, şəkər, halva ilə dolma, plov, fisincanı,
Küftəsi müftəcə gəlir, düyü, kükü, tərək çıxır.

Odun, kömür, yağ, kərə, siğəsi mətəsi hələ,
Üstə də pulu, mülkü var, nan çıxır, həmək çıxır.

Milləti qovlaram, kişi, bir də qazet oxumasın,
Əldən alır qiyaməti, huri çıxır, mələk çıxır.

Mən necə eyləyim qəbul jurnal ilə qazet sözün,
Mən o şeyi görən kimi, göz kor olur, bəbək çıxır.

Əsrin işi dəyişdi lap, indi bir azca səbr edin,
Söz qurtarubmı, yoxsa var! Daha nələr görək çıxır?

## TURŞULU AŞ

«Kəlniyyət», o hansı aydır millətin
İncəlir boynu, boğazı qıl kimi?
Sən taparsanmı bu sirrin hikmətin,
Mollanın olduqda boynu fil kimi?!

## QİSMƏT QAZANIR

İşbu dünyada hərə bir cürə nemət qazanır!
Hər kəsə olsa bu aləmdə nə qismət qazanır.

Məsələn, arif əgər min də edə sidq, səfa,
Olmıya onda nə təzvir, nə kizbü, nə riya,
Yüz də düz söylüyə, düz tərpəşə, doğru danışa,
Min də fəryad edə verməzlər əhəmiyyət ona.
Yenə hər vəqt bu bədbəxt elə töhmət qazanır,
Bəlkə töhmətmiş əzəldən ona qismət, qazanır.

Çünki hər vəqt edib bəhs, maarif sözünü,
İstiyor zümreyi-insanlara qatsın özünü,
Söyliyor molla da nə eyb tutarsa düzünü,
Qoymayor şeyx yuma çünki əvamın gözünü,
Molladan ol səbəbə bolluca lənət qazanır,
Xəlqi asudə sevərkən özü zillət qazanır.

Xaricilər... ki, deyir şeyx olara "kafərdir",
Kimisi əhli-sənaət,, kimisi tacirdir.
Kimi doktordu, mühəndisdi, kimi naşirdir,
Cümləsindən əməli-xeyr oların zahirdir,
Ki bu aləmdə olar ismilə şöhrət qazanır,
Bəli, düzdür, qazanır, leyk narahət qazanır.

Əqlinə gəlsə, qərəz, hər nə qədər məxluqat,
Cümləsi zəhmətilə eyləyir imrari-həyat.
Bir para nan qazanırkən görü yüz min zəhəmat,
Bircə rahət güzəran sahibi var, biisbat,
O da molladı ki, asudə məişət qazanır,
Ki, dolur ciblərinə hər nə bu ümmət qazanır.

Bir zaman ta dolanır il, rəməzan ayı gəlir.
Doluşur məscidə xərguş oturur, ayı gəlir.
Yəni kim hacı gəlir, məşhədi, kəblayi gəlir,
Mollaya şorba gəlir, qəndi gəlir, çayı gəlir,
Molla asudə yeyir, eyşilə işrət qazanır,
Xalq məsciddə gözüyaşlı müsibət qazanır.

Qır- fır ilə sərmənbərə molla ki, çıxar
Min cürə şivə ilə qırmızıca xəlqi soyar,
Müsliminə peşəsi föhşdi ta ağzın açar,
Zalımın, bahəmə, hər vəqt cibişdanı dolar.
Xalqa söydükdə yenə hörmət, izzət qazanır,
Görəsən kim bu cahanda belə nemət qazanır?

Məncə, bu əsrdə bihudə təlaş etmək əbəs,
Məktəb, elm, maarif dalıca getmək əbəs!
Cocuğun xırda ikən tərbiyəsin etmək əbəs!
Səyi-bihudə edən axırı töhmət qazanır,
Hər kəsə olsa bu aləmdə nə qismət qazanır.

## TƏBRİKNAMƏ
**(Əvvəl iranlılara, sonra musurmanlara)**

Ey möcüzəvü mükarim əhli,
Ey xəlqi soyan əmaim əhli,
Bu ayda olan qənaim əhli,
Məxluqu sanan bəhaim əhli,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey irözeyi-həq bilib tutanlar,
Təzvir, riyaya qurşananlar,
Saqqallarına həna qoyanlar,
Ey mollalara mürid olanlar,
Bu eyd sizə mübarək olsun.
Taətləriniz qəbul olunsun.

Ey Kəbəyə, Məşhədə gedənlər
Dadü sitədində and içənlər,
Ey föhşilə, sübhi şam edənlər,
İftardə övrəti döyənlər,
Bu eyd, sizə mübarəkolsun,
Taətləriniz qəbul olunsun.

Ey rəngli çaylar içənlər,
Ey hoqqanı xalqa püflədənlər
Ruzə yeyənə inad edənlər,
Ey mədhi-Əmiri söyləyənlər
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey padvala məxficə gedənlər,
Kanyak, şərab meyl edənlər,
Qastində, maloçnada gəzənlər,
Xəlvət deyərək oruc yeyənlər,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey huriyi-cənnəti satanlar,
Böhtanilə xalqı ağladanlar,
Hədyanilə xalqı aldadanlar,
Xalqın iliyin qanın soranlar,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey məktəbə xidmət eyləyənlər,
Ey hər işə diqqət eyləyənlər,
Ey formaları gödək geyənlər,
Ey pərçəmi baş, sapoq geyənlər,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey başa döyüb də ağlayanlar,
Bir abbasıya behişt alanlar,
Mollaya özün fəda qılanlar,
Arifləri ey daşa basanlar,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey arifə kafər ad qoyanlar,
Cahilləri başına yığanlar,
Arifləri bollu tapdadanlar,
Məqsudu-muradına çatanlar,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

Ey «mahur» ilə salam verənlər,
«Çarəng» ilə nöhələr deyənlər,
Mərsiyyə əvəz «segah» deyənlər,
Ey müftəcə siğələr edənlər,
Bu eyd sizə mübarək olsun,
Taətlariniz qəbul olunsun.

Ey jurnal ilə qazet yazanlar,
Ey düz yolu kəc edib azanlar,
Ey mollaların kefin pozanlar,
Təzvir, riya kökün qazanlar,
Bu eyd sizə mübarək olsun,
Taətləriniz qəbul olunsun.

## İSFAHANLI OĞLU DEYİR:

Bəhəmdullah ki, qırxıq baş, yoğun peysər, qafa bizdə,
İki put başda əmmamə, əba bizdə, qəba bizdə.

Yoğun şal, dikdaban başmaq, uzun saqqal,
Düşübdür qurşağa rəng eyləyibdir qapqara bizdə.

Qoyub bü milləti düşgün sənayedən, maarifdən,
Həqiqət gizlədən min pərdə, var, zülmətnüma bizdə.

Əcaib zövqpərvər, hiyləgər bir növ məxluquz ,
Məsacid bizdə, mənbər bizdə, böhtanü-riya bizdə.

Ki, bizdə rəhm yox, vicdan yox, qövli-həqiqət yox,
Dəruni-qəlbimiz sərşari-qövli-iftira bizdə.

Yalan, doğru deməkdə minbərin üstündə sərbəstiz,
Təbii bir zəka yandırmağa kəskin dəva bizdə.

Cəhənnəm bizdə, cənnət bizdə, huri bizdə, hər şey bizdədir, billah!
Alıb-satmaq bizimdir, cənnətə qoymaq bəha bizdə,

Qarın bizdə, gödən bizdə, alovlu mədədir bizdə.
Nə dolsa, mədəmiz həzm eyləyər, qoymaz qala bizdə.

Əcanib çəkmədə öz millətin hər vəqt pişa-piş.
Deyib laylay yatırtdıq, yuxladıb saldıq dala biz də.

## BİR LÖQMƏ NAN ÜSTÜNDƏDİR

Sanma bihudə ki, hər qövlüm yalan üstündədir,
Tiri-təkfirim əbəs sanma kəman üstündədir.
Ahü-zarım cümlə bir əmri-nihan üstündədir,
Fikri-zikrim cümləsi bir löqmə nan üstündədir.
Ol səbəbdən qəlbi-naşadım fəğan üstündədir.

Ağlaram düşdükcə yada çün keçən gün halıma,
Ol keçən dövranıma, parlaq olan iqbalıma,
Aldanırdı xalq əbavu həm qəbavu-şalıma,
Kimsə gülməzdi mənim bir qırmızı saqqalıma.
İndi hər kimsə mənə bir bəd güman üstündədir,
Ol səbəbdən qəlbi-naşadım fəğan üstündədir.

Eybimi faş eyliyən bu çöhrə qırxıxlardılar,
Bu ədəbsiz, bu gödək paltarlı sırtıqlardılar,
Bundan əvvəl cümləsi əhvalımı yoxlardılar,
Hörmətimi hər zaman təzim edib saxlardılar.
Əsl dərdim bu qəzet-jurnal yazan üstündədir,
Ol səbəbdən qəlbi-naşadım fəğan üstündədir.

Qalmışam indi plovla çaya həsrət, vay dədə.
Aş qəndabsız durur, bəs hanı ləzzət, vay dədə,
Çulğalar, gəldikcə, qəlbi dərd-möhnət, vay dədə,
Getdi əldən köhnə ləzzət, köhnə işrət, vay dədə,
Boş qalıb qaynamayan çömçə qazan üstündədir.
Ol səbəbdən qəlbi-naşadım fəğan üstündədir.

Bundan əvvəl xalq də bir özgə niyyətlər dilər
Payi mənbərdə giriybanlarını bitlərdilər,
Hər nə söz çıxsaydı ağzımdan qulaq cütlərdilər,
Əsginası ovcuma basdıqca xəlvətdərdilər,
Körpələr ac qalmış indi, cümlə can üstündədir.
Ol səbəbdən qəlbi-naşadım fəğan üsdündədir.

## QAN EYLƏYİR

Yenə-təbi-şerim rəvan eyləyir
Gözəl bir hekayət bəyan eyləyir:

Qızışmış bəli, İrəvan əhli cəngə,
Dönüblər bütün şirə, bəbrə, pələngə,
Əl atmış təmamən «revolver», tüfəngə.
Gəlib əllərindən bütün şəhr təngə.

Mürüvvət, həmiyyət fəğan eyləyir,
Tərəhhüm düşüb əlaman eyləyir.

Hamı büğz, kin ilə etmiş tifaq,
İnada yetirmiş bütün iştiyaq,
Ədavətlə həmdəst əzəlki sayaq,
Nə var mehr, nə ülfətü ittifaq.

Məhəbbət özünü nihan eyləyir,
Ədavət, şərarət əyan eyləyir.

Baxırsan iki gündə-bir qan olur:
Biri qatilü zibi-zindan olur.
Qapı bağlanır, xanə viran olur,
Səfalət, rəzalət firavan olur,

Zəlalət öz hökmün rəvan eyləyir,
Həyatı pozur, binişan eyləyir.

Məgər sizdə yoxdurmu rəhm, ey cəmaət?..
Nədir bu qədər kinü-büğzü ədavət?..
Məgər etməmişmi peyğəmbər vəsiyyət! –
Bizə ittifaq, ittihadü üxüvvət?

Üxüvvət bumu,-xəlqi qan eyləyir?
Belə vəhşəti-biaman eyləyir?

## VƏLVƏLƏ

Bilmirəm, yarəb, yenə hardan, hayanlardan deyim!
«Yeddi yer»dən başlayım, ya asimanlardan deyim?

Xanümandan başlayımmı? Ya deyim əyanların,
Hümmətü mimmətlərin, ol sahibi-milyonların,
Ya deyim ac-mac qalan yoxsulların, kənkanların
Kirli-mirli, cıb-cırıq paltarların, palanların,
Vəsf edim ya evdəki çıplaq qalanlardan deyim?

Başlayım ya İravanda tazə qətlü-mətldən.
Ya paçotnik, ya maçotnik baş-bacağı ətlidən,
Ya deyim ərbabi-kin qeyrətlidən-meyrətlidən.
Ya yazım sahibhünər, cürətlidən, mürətlidən...
Ya ki, pis-mis vaxtıda güllə atanlardan deyim!

Ya ki, Nasir-masirin Zakilərə iradını,
Zikr edim? Ya ki, doşabçı Seyyidin inşadını?
Ya ki, söhbət-möhbətin axır qaçırdıb dadını?
«Mov-mov»ın yainki böylə boş quru fəryadını
Əldə dəstaviz edib hədyan yazanlardan deyim?

Ya qazet-mazet kimi bollu yalanlar bağlayım?
Ya ki, şagirdin sevən «cəkməduz»a gün ağlayım?
Hərb sözü tək... əslini fərin çağlayım?
Gah da bir az dağlayım, gah da bir az da yağlayım,
Qanmasın bir kimsə də düzdən, yalanlardan deyim.

## İLLƏR XƏSTƏSİ

«Tuti», mənə eyləgilən mərhəmət,
Var yeli, həm ağrılıdır baldırım.
Yaz açılar, hansı olar məsləhət,
Qan alarım, ya ki, zəli saldırım?

Gözlərimin suyu axır, dərdi var,
Çarpınıyor qəlbim olur biqərar,
Fırlanıyor başıma yer, dər divar,
Bilməyirəm indi zəli saldırım,
Ya ki, gedib dəlləgə qan aldırım?

Yatmayıram il gecəsin sübhə tək,
Məndə aman qoymadı bu öskürək,
Zəhrə dönübdür mənə içmək, yemək,
Yaxşımıdır bir həcəmət aldırım?
Eyb eləməzsə, qulağım kəsdirim?

İl uzunu heç də yığılmaz yerim,
Can üzülübdür qırışıbdır dərim.
Ac qalıb altı nəfər övrətlərim,
Mən deyirəm ki, genə rahətdi bu.
Qüvvətim artarsa zəli saldırım?

Yaxşı olursa dişimi çəkdirim,
Eyb eləməzsə qulağım kəsdirim.
Mən deyirəm ki, genə rahətdi bu:
Qan alırım, ya ki, zəli saldırım?

## TİRYAKİLƏRƏ SƏR-SƏLAMƏTİ

Gəlin, ay tiryakilər, bir yeni hədyan oxuyun!
Yeni söz, tazə xəbər, tazə bir ünvan oxuyun!
Oxuyun, böht götürsün sizi, heyran oxuyun,
Ayılıb, başa düşübdür yeni İran, oxuyun.
Görün, Əhməd şah edibdir necə divan, oxuyun,
Ev yıxan, nəşə pozan bir yeni dastan oxuyun!

Necə kim oldu Rusetdə qədəğən şürbi-əraq...
İçkiyə adət edənlər üzülüb oldu naçaq.
Etdi İrana da axırda sirayət bu səyaq,
Oldu İranda da tiryak işi tainki yasaq,
Görün oldu eviniz bir necə viran, oxuyun!
Ev yıxan, nəşə pozan bir yeni dastan oxuyun.

Bir ağır xərc qoyulmuş onu hər kimsə əkə,
Var xüsusən də böyük şərti əgər birsi çəkə,
Görməmişdi bir iş İran hələ bu boyda yekə,
Bir də mümkünmüdü merac edəsiz siz fələkə?
Bu xəbər eyləyəcəkdir sizi bican, oxuyun,
Ev yıxan, nəşə pozan bir yeni dastan oxuyun!

Bu xəbərlər bilirəm ki, pozacaq halınızı,
Eylər əfsurdə hamı puxtənizi, kalınızı,
Gözünüz yaşı verər sellərə mənqalınızı,
Zor yazıb dəsti-qəza nameyi-əmalınızı,
Ki, salar hoqqanızı axırı xoddan oxuyun,
Ev yıxan, nəşə pozan bir yeni dastan oxuyun.

Tiryakın adı, sizi əsdirəcək nanə kimi,
Şərhə-şərhə edəcək bağrınızı şanə kimi,
Olacaq bircə manat bir pənabatlıq çəkimi,
Şaşdırıb eyləyəcəkdir sizi divanə kimi:
Xud sizə sadir olub bu yeni fərman oxuyun!
Ev yıxan, nəşə, pozan bir yeni dastan oxuyun!

## GƏRƏK

Kəsbi-kamal eyləyə insan gərək,
Cism diri olmaq üçün can gərək.
Elmsiz adəmlər üçün hər zaman,
Xər kimi bir noxta və palan gərək.

Ləzzətini anlamayan bozbaşın
Meyl eləyə yonca və saman gərək.
Beylədi qanuni-təbiət əzəl,
Qapzalana təbəei-İran gərək.

Bunda nədir hikməti mən bilmirəm,
Min yerə məni ola Quran gərək.
Olsa pulu beş şahi hər bir kəsin,
Olmıya heç sahibi-vicdan gərək.

Olsa da elm əhli bütün əcnəbi,
Cahil ola cümlə müsəlman gərək.
Harda müsəlman çox isə müxtəsər,
Gündə biri qanına qəltan gərək.

Adəm odur ki, ola çox fitnəcu,
Ondan ala tərbiyə şeytan gərək.
Hacı-gərək beşnəfər arvad ala,
Bir-iki də sadəcə oğlan gərək.

## ARİF QƏZƏLİ

Arif odur, ki, gözləmiyə ehtiramını,
Rüsvayi-aləm eyləyə öz nəngü-namını,
Gəldi-gedərlə sabiti-təşxis qılmaya,
Fərq etmiyə gəda ilə şahın-məqamını.

Yüz il birilə həmdəm olub duz-çörək yeyə,
Bir gündə yüz ilin poza həqqüssalamını!
Xəlqə nişan verə özünü xadimi-vətən
Amma düşünmüyə vətənin ehtiramını.

Hal əhli zənn edə özünü ruzu-şəb, vəli
Qal ilə müttəsil keçirə sübhü-şamını.
Hər kəcnigəhlə həmdəm olub düz hesab, edə
Ney kimi suzi-dil edə Rüstəmlə kamını.

Bəhsi-kamali-əql edə, naqis ikən özü,
Çərxin hilal zənn edə mahi-tamamını.
Xud kasəlis ola, sana əhbabi kasəlis,
Könlüm kimi şikəst edə Cəmşid camını.

Bucəhl ikən, sana özün əllameyi-zaman,
Nəfsə uyub bəyənməyə əsrin imamını.
Varlı görəndə səcdə edə bütpərəst kimi
Yoxsul görəndə döndərə həcvə kəlamını.

## QIZILLI YARPAQ,
**yaxud**
## ZƏKALI ƏNVƏR
**(Məktəbli balalar üçün)**

Sabah oldu banladılar xoruzlar,
Oxudu bağçada bülbüllər, quşlar,
Günəş çıxdı işıqlandı bağçalar
Çığıllaşıb uçuşdular sərçələr.

Çoban sürdü qoyunları otlağa,
Quzular mələyib, dırmandı dağa.
Mehriban analar sevib oxşuyur
Bu növ ilə cocuqları ayıldır:
Sübh açılıb, can oğlum,
Ayıl uyqudan, oğlum.

Oxur quşlar, bülbüllər,
Açıb bağçada güllər,
Yaşıllaşıb sünbüllər.
Sübh açılıb, can oğlum,
Ayıl uyqudan, oğlum.

Həyətdə var gözəl su,
Əl-üzünü təmiz yu.
Bəsdir, oğul, bu uyqu,
Sübh açılıb, can oğlum,
Ayıl uyqudan, oğlum.

Dur, çayını içgilən,
Formaların geygilən,
Məktəbə tez getgilən,
Sübh açılıb‹ can oğlum,
Ayıl uyqudan, oğlum.

Oxumağa həvəs ver,
Dərsini elə əzbər.
Müəllimin inciyər,
Sübh açılıb‹ can oğlum,
Ayıl uyqudan, oğlum.

Oxumağa meyl eləyin cocuqlar
Anaları çağırcağın tez durar.
Gedər, yuyar əl-üzünü tər-təmiz,
Olar ana yanında o, çox əziz.

Həyəti, bağçanı dolanar, gəzər
Çiçək dərib, kəsaləti məhv edər.
Bir-iki istəkan çay içib durar,
Divardakı saata bir yol baxar.

Baxar ki, var hələ bir yarım saat,
Məktəbin vaxtına... əyləşər rahat.
Açar kitabını bir də əzbərlər,
Dərsi əzbər, hesabı hazır edər.

Bir də baxar, az qalıbdır vaxtına,
Yığar bir-bir kitabı çantasına.
Gedə-gedə dərslərini zikr edər,
Ürəyində bu sözləri fikr edər:

«Dərsim rəvandır mənim,
Beş verəcək müəllim,
Daha mənim nə qəmim?
Dərsimə etdim diqqət,
Olmacağam xəcalət.

Yazılarım görüncə,
Əhsən deyəcək xacə.
Olacağam baş uca,
Dərsimə etdim diqqət.
Olmacağam xəcalət.

Çətin ola, ya asan,
Dərsimi qıllam rəvan.
Daha gözəl o bundan,
Dərsimə etdim diqqət,
Olmacağam xəcalət. »

Şüurlu çocuqlar ha belə olar.
Yazısını, dərsini hazır qılar.

Ənvər adlı bircə cocuq var imiş,
Oxumağa çox da həvəskar imiş.
Hər zaman dərsini hazır edərmiş,
Məktəbə vaxtında, erkən gedərmiş.
Savaşqanlıq, şuluqluq bilməz idi,
Vel-vel bazar-küçəni gəzməz idi.
Müəllimi onu hər vaxt sevərdi,
Ona dəftər, qələm bəxşiş edərdi.
Dərsində hər zaman beşlər alarmış,
Müəllimi ondan razı qalarmış.
Yoldaşları çıxanda oynamağa,
Bu, çəkilib dürardı bir qırağa.
Dərsini oxuyub edərdi rəvan,
Qoymazdı dərsində qala bir nöqsan.
Yoldaşları oynayardı, qaçardı,
Yıxardı bir-birin, toza bulardı,
İncidərdi bir-birini hər zaman
Üz-gözləri cızıq-cızıq axar qan.
Yoldaşları buna təklif edərdi,
Onlar ilə oynamağı deyərdi.
Cavabında Ənvər deyərdi. amma:

- «Bu növilə oynamaqlıq nədir ya?
Qaçırsınız, düşürsünüz torpağa,
Batırsınız belə suya, palçığa.
Neçin gedib, qaçıb, belə çırpışaq?
Gəliniz bir dərsimizdən bəhs açaq,
Lazımdır ki, edək dərsləri rəvan,
Bu gün, sabah gəlir vəqti-imtahan».

Yoldaşları buna baxırdı, gah-gah,
Təhqir edib, gülərdilər qah, qah, qah,
Yığışırdı hamı şagird bir yerə,
Bu sözləri deyirdilər Ənvərə:

«Ənvərə bax, Ənvərə,
Qaşı kömurdən qərə,
Huşun verib dərslərə,
Yazın adın- dəftərə.
Ənvər, Ənvər, can Ənvər,
Oyundan qorxan Ənvər.

Gəlin bizlər oynayaq,
Bir-birimizi, yıxaq.
Bu sözləri söyləyib,
Oyan bu yana qaçaq.
«Ənvər, Ənvər, can Ənvər,
Oyundan qorxan Ənvər».

Ənvər baxıb onlara,
Yazıq labüd qalırdı.
Bu da çəpik çalırdı,
Onlara səs salırdı:

«Uşaq, uşaq, can uşaq,
Gəlir imtahan uşaq.
Mənə rişxənd edərsiniz,
Belə atılıb-düşərsiniz,
Sözumü sonra bilərsiniz,
Onda başa düşərsiniz.
Uşaq, uşaq,can uşaq,
Gəlir imtahan uşaq».

Müəllim zəng çaldı, doldu otaqlar,
Hər kəs gəlib öz yerində otdular.
Müəllim onları sevər, oxşuyar,
Dərslərindən bir-bir onlardan sorar.
Bəziləri az-az cavab verərdi,
Bilmiyənlər baxıb gözün döyərdi.
Hər bir söz ki, soruşardı Ənvərdən,
Cavab alıb söyləyərdi: çox əhsən.
Əzbər dərs olaydı, yainki hesab,
Ənvər düruxmayıb, verərdi cavab.

Müəllim onlara etdi nəsihət,
Dedi:- Cocuqlarım, eyləyin, himmət.
Zehinli şagirdlər əmək itirməz,
Müəllimi heç vaxt xəcalət etməz.
Görürsünüz necə əzizdir Ənvər?
Səbəb odur ki, dərsi əzbər edər.
Dərsinizi təkrar eləyin əzbər,
Qapanacaq bir həftəcik məktəblər.
Altı gündən sonra başlar imtahan,
Bacardıqca edin dərsləri rəvan.
Haydı, gedin! Allah əmanətində,
Beş gün sonra gələrsiniz vaxtında».

Müəllim qurtardı ta bu kəlamı,
Getdi çoluq-cocuq oradan hamı.
Bu cocuqlar çıxdılar ta küçəyə,
Daş atdılar faytunçuya, südçüyə
Dolaşdılar yolda gəlib-gedənə,
Söyüb, qaçıb, oldular hərzəçənə.
Evlərinə gedib etdilər şuxlüq,
Qaldırdılar çığır, bağır, qışqırıq.
Ana, bacıları çəkdilər fəryad,
Bunların əlindən elədilər dad.
Gündə bir qoşulub getdilər bağa,
Dırmaşdılar bu təpəyə, o dağa.
Dağ başında dəstə ilə, cövq ilə
Bü sözləri oxudular şövq ilə:

«Gəliniz gedək gəzməyə,
Qırğı kimi süzməyə.
Bu göllərə girəlim,
Balıq kimi üzməyə.
Nəyə lazım imtahan,
Qoy, biz olaq peşiman.

Bağı, dağı seyr edək,
Bağçalarda gül dərək.

Beynimiz lap qaraldı,
Dərsi niyə fikr edək.
Nəyə lazım imtahan,
Qoy biz olaq peşiman.

Oynüyalım gizlənpaç
Haydı gəldim, durma, qaç!
Bu pisdirsə oynayaq
Hamı «papaq aldı qaç!»
Nəyə lazım imtahan,
Qoy biz olaq peşiman.

Ondan sonra oynayaq,
Atılın, başmaq yırtılsın,
Dəbbağda gön var hələ,
Başmaq tikən sağ olsun.
Nəyə lazım imtahan,
Qoy biz olaq peşiman.

Ləzzət budur, yoldaşlar,
Kef eləyin, qardaşlar.
Heç birimiz getmərik,
O vaxtda ki, dərs başlar.
Nəyə lazım imtahan,
Qoy biz olaq peşiman.

Bunlar uyuşdular eylə həvəsə,
Bir gün böylə baxmadılar heç dərsə.
Ənvər o gündən ki, gəldi məktəbdən,
Əl çəkmədi dərsi əzbərləməkdən.

Anasına hər vaxt etdi itaət.
Bacısına hər vaxt etdi məhəbbət.
Küçəyə çıxmayıb, savaşmaz idi,
Nadinc uşaqlara yanaşmaz idi.

Olduqca hər kəsə hörmət edərdi,
Gəzib, gəlib dərsi əzbər edərdi.
Altı gündə hər bir işi sazladı,
Hesabını, dərsini hazırladı.

Öylə ki, imtahan vaxtı yetişdi,
Altı gün keçmişdi məktəbə getdi.
Gəlmişdi məktəbə əkabir, əyan,
Müdir, müəllimlər vəqti-imtahan.

Gəlib bir-bir yığıldılar şagirdlər,
Hər kəs öz yerində otdu birbəbir.
Müəllim başladı imtahanını,
Əsmə tutdu uşaqların canını:

Hər kəsin ki, dərsi qələt qalmışdı,
Saralmışdı, baş aşağı salmışdı.
Müəllim soruşaraq edərdi xitab,
Zirək uşaqlar tez verərdi cavab.

Müəllimlər danışdırdı Ənvəri.
Gördülər ki, rəvandır hər dərsləri.
Onu əyan, əşraf edirdi alqış,
Hər bir dərsə imtahanda aldı beş.

Bəxşiş etdi ona əşrafü-əyan
Yazı dəstgahına lazım zadlardan.
Ənvər bu növilə ki, alqışlandı,
Tənbəl cocuqlar da baxıb utandı.

Ənvər tutub yoldaşlara üzünü,
Onlara söylədi işbu sözünü:
«Mən ki, sizə deyirdim,
Nəsihət eləyirdim,
Bu günləri bilirdim.
Dərsinizi oxuyun,
Sonra xəcil olmuyun.

Siz atılıb-düşərdiniz,
Mənə baxıb gülərdiniz,
Bu sözləri deyərdiniz:
«Sözlərinə uymuyun!
Dəli olub qoymuyun!»

Bu sözləri böyüklər
Eləki eşitdilər,
Keçən işi bildilər,
Hamı birdən dedilər:

«Sağ ol, zəkalı Ənvər,
Var ol zəkalı Ənvər».

Buyurdular uşaqlar,
Ayaq üstə durdular.
Bir ağızdan hər nə var
Deyib çəpik çaldılar:

«Sağ ol zəkalı Ənvər,
Var ol, zəkalı Ənvər,
Biz əvvəldən bilmirdik,
Sənə baxıb gülürdük.

Nahaq töhmət edirdik.
İndi anladıq bildik.
Sağ ol, zəkalı Ənvər,
Var ol, zəkalı Ənvər.

Yaşa, Ənvər, çox yaşa.
Oxun dəyməsin daşa.
Tofiq versin tanrımız,
Təhsilin çatsın başa.
Sağ ol, zəkalı Ənvər,
Var ol, zəkalı Ənvər».

Müəllimlər etdildr,
Uşaqla1rı mürəxxəs.
Gedə-gedə hamısı
Bir yerdə vurdular səs:
«Sağ ol, zəkalı Ənvər,
Var ol, zəkalı Ənvər».

Ənvər öpdü xacəsinin əlindən,
Xeyir-dua aldı müəllimindən.
Özü kimi zirəklərdən beş nəfər
Müəllimə xudahafiz etdilər,

Evlərinə getdilər şadü-xəndan,
Müjdələr aldılar atalarından.
İzn aldılar, səyahətə getdilər,
Çəmən-çiçəkli bir bağa yetdilər.
Bulaqlar qaynayıb, sular axırdı,
Çiçəklər bunlara mat-mat, baxırdı.

Ağaclar bir-birin alıb qoynuna,
Qol salıblar bir-birinin boynuna.
Çəh-çəh vurub ötüşürlər bülbüllər,
Gülüşürlər çiçəklər, qönçəli güllər

Şu aləmə bunlar etdi tamaşa,
Düzüldülər bunlar cüft, qoşa-qoşa.
Quşlar gətdi bunları ta həvəsə;
Bu sözləri qoşdu bunlar səs-səsə:

«Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.
Xoş gəlibdir sizə bu güllər,
Süsənlər, çiçəklər, sünbüllər,
Bu dağlar, dərələr, meşələr.

Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.
Bəxtəvər bizlərik bizlərik.
Elmin gülzarını gəzərik,
Min cür çiçəklər dərərik,

Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.
Vermişik bu gün biz imtahan,
Almışıq alqışlar hamıdan:

Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.

Mərifət gülşəni bizimdir,
Sünbülü, süsəni bizimdir.
Həm gülü, səməni bizimdir,
Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.

Gəzirik elm gülzarını,
Görürük güllü bağlarını,
Yamyaşıl uca dağlarını.
Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.

Bilmərik yavalıq tənbəllik,
Etmərik şuluqluq, cədəllik,
Məktəbi elərik biz şənlik.
Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.

Vətəndir ölkəmiz, yuvamız,
Yaşasın müəllim xacəmiz,
Yaşasın oxudan atamız.
Ötüşün, ay quşlar, bülbüllər,
Gülüşün, ay quşlar, bülbüllər.

## PƏRVANƏNIN KITABI
## **«PƏRVANƏ NECƏ QIZDIR?»**

Br gün durdum Təhrandan,
Uzaq- uzaq yollardan,
Hıqqana- ha- hıqqana,
Gəldim Azərbaycana.

Nələr gördüm mən orda,
Quşlar oxur şən orda.
Kəhəlik gülür dağında,
Bülbül oxur bağında.

Bağlarının çiçəgi,
Taqçaların bəzəgi.
Hələ sən bax badama,
Çiçək gülür adama.

Azərbaycanda hər yer,
Güldür, çəmən, çiçəkdir.
Gəldim çıxdım Təbrizə,
İndi deyim mən sizə.

Gəzə- gəzə ha belə,
Gəldim Pərvanə gilə.
Çaldım çaq- çaq qapıya,
Hey şaqqa- şaq qapıya.

Gördüm ki, bir səs gəldi,
Soruşdu ki, o kimdi?
Bu səs nə səs, quş səsi,
Bülbül səsi, quş səsi.

Bildim ki, Pərvanədi,
Pərvanə bir danədi.
Dedim ki, Pərvanə can,
Əmindi qapı çalan.

Sevinci başdan aşdı,
Qapını tezcə açdı.
Eşigə bir qız çıxdı,
Dedim bəs ulduz çıxd.

Ulduz dəgildi aydı,
Qaşları bir cüt yaydı.
Saçları sap sarıdı,
Dişləri mirvarıdı.

Dodağı ki, qaçardı,
Elə bil gül açardı.
Ulduz nədi, ay nədi,
Qızın alnı aynadı.

Belə gözəl qız olmaz!
Nə ay nə ulduz olmaz!

## HEYDƏRDƏR BABANIN DILINCƏ
«**Heydər Babaya Səlam**» poemasına nəziyrə

Əleykümәssәlam! Şəhryar ağa,
Çoxdandı qaçmışdın bizdən uzağa,
Ayaq basmazıdun bızım qonağa,
Cavanlıq dövrindən bu çağa diyən,
Sən heç bizdən belə yad etəməzidin,

Nə oldu ay oğul sən birdən birə?
Unutduğun eli saldın xatirə!
Çağlayan sulara, əsən yellərə
Bu qoca Heydərə eylədin səlam
Lütfün artıq olsun əleykəssəlam!

Nə qədər dadlıymış sənin bu dilin
Eşidən kimi bu səsini elin
Qoca, cavan, uşaq, qız- gəlin
Səni dinləməyə qaçdılar çölə
Anam qurban olsun bu şirin dilə.

Fars qızları azdırmışdı əməlin?
Ki, farscaydı bütün şerin- qəzəlin,
Heydər baba yurdunda bir gözəlin
Eşəqinə bir qələm qoymazdın belə!
Farsıca yazmaqdan doymazdın belə.

Təhran gözəlləri yolun kəc etdi
Könlünü aparıb səni gic etdi
De görüm ya fəlk sənlə ləc etdi?
Döngə varmış, dönüm varmış bilmədin
Ayrılıq var, ölüm varmış bilmədin,

İndi bizi tazə gəlib tapırsan
Könlümüzə közlər qoyub yaxırsan
Həsrət ilə keçənlərə baxırsan
Görürsən ki, sular axıb gedirmiş
Doğulan qocalıb, ölüb, itirmiş.

Çoxda vermə, sıxıntı öz könlüna
Mehribandır hər ata öz oğluna
Qayıtmışsan indi sən öz yoluna
Buyurgilən göz üstündə yerin var
Elin səni sevinc ilə qarşılar.

Səlam elər bütün elimiz sənə
Bağçamız, bağımız, gülümüz sənə
Uzun müddət susan dilimiz sənə
De görək deməli daha nəyin var
Əfəsüs ki, sən gec dil açdın şəhryar!

Kiçik uşaq təzə sözə gələndə
Ayrı bir dadlılıq olar dilində
Ləzzəti var ağlayanda, güləndə
İndi ki, dil açdın susma, ağla-gül
Yaman söylə, yaxşı söylə, dağla gül!

**«AZƏRI XƏYYAM»**
**(kitabdan örnəklər)**

Sirri əzəli nə sən bilirsən nə də mən,
Bu bilməcəyi nə sən oxursan nə də mən,
Biz pərdənin arxasında söyləşmədəyiz,
Ta pərdə düşür nə sən qalırsan nə də mən.

Əvvəl mənə iztirar ilə verdi vücud,
Dirlikdə mənə nə oldu cüz heyərt sud?
Getədik dəxi ikrah ilə biz anlamadıq,
Kim böylə gediş- gəlişlə nə imiş məqəsud?

Biz xeyli dolaşdıq bu çölü, şəhri, köyü,
Gəzdik bütün afaqda illər uzunu,
Bu yoldan eşitmədik ki, gəldi birısi,
Hərgiz geri dönmədi gedənlər bu yolu.

Saldı ki, təbayei bu şəklə yaradan,
Nə üçün yenidən götürdü nəzmi aradan?
Gər qabil imiş bu şəkli qırmaq nə üçün,
Naqabil imiş əgər, kimindir nöqsan?

Ey dil açamazsan bu müəmmayı sən,
Dana dedigi nöktəyi də bilməzsən,
Sən qırmızı meylə burda yap bir cənnət,
Məlummu behiştə gedəsən getəməyəsn?

Sən bil ki, bu can ayrılacaqdır səndən,
Sirri ədəm eylər səni pünhan gözdən,
Mey iç haradan gəldigini duymursan,
Şad ol haraya getməlisən, bilmirsən.

Cənnətlə cəhənnəmi görən yox ey dil,
Ordan bu cahanə bir gələn yox ey dil,
Biz xövf-ü ümid etdigimiz ol şeyin,
Cüz nam, nişanını bilən yox ey dil.

Bu pərdeyi-əsrardə yox kimsəyə yol,
Bu qurğuyu kəşfə yoxdur imkanı vüsul!
Yox torpağın altdan özgə bir mənzilimiz,
Dinlə ki, bu cür fəsanələr var bol- bol.

Bu dairə kim biz onda get- gəl ediriz,
Nə əvəlli, nə sonu bilinməz hərgiz.
Yox doğru deyən birisi ki, bu aləmdə,
Gəldik haraya biz, gedirik ya hara biz.

Ol qəsr ki, mey içərdi Bəhram orda,
Ceyəran bala qoydu, tülkülər etdi yuva.
Bəhram bütün ömrünü gur(govr) ovlarkən,
Gördün necə ovladı onu gur(govr) amma?

Üstündə bu toprağın yatanlar görürəm,
Altında dəxi gizli qalanlar görürəm.
Hər qədr bu dəşti ədəmə kim baxıram,
Daim gedərək qayıtmayanlar görürəm.

Bu əlləri palçıqda olan küzəçilər,
Öz işlərinə qılsalar huş ilə nəzər,
Təhəqir ilə döydükləri bu palçıqlar,
Həp xaki bədəndir bunu bilməzlər məgər?

Bu küzə ki, mən tək aşiği zar imiş,
Zülfi siyəhi yarə giriftar imiş.
Bu qulp ki, görürsən sən onun boynunda,
Bir qulpdur o, kim həmayili yar imiş.

Bizdən irəli var idi bu leyl-ü nəhar,
Həm bir iş içün işlər imiş bu düvvar.
Bu toprağa ahəstə götür qoy ayağın,
Bir mahrüxun göz bəbəgidir zinhar.

Çaldım daşa bir küzəyi keçən gecə mən.
Çox kefli idim verdi bu iş baş məndən.
Ol küzə dedi ki: mən də sən kimi idim
Bir gün də mənim kimi olursan dəxi sən.

Çıxdı əlimizdən ol vəfalı dostlar,
Payi əzəl onları əzib etdi xar.
Bir meydən içirdik dirilik bəzmində,
Bizdən iki dövrə tez yıxıldı onlar.

Tumarı şəbabımız oxundu bitdi,
Eyşin də gözəl kitabı başa yetdi.
Eyşin quşu kim adı cavanlıq idi,
Bilməm nə zaman gəldi, nə dəməlr getdi.